# XOCALI QƏTLİAMI

## ERMƏNİ QƏSBKARLIĞININ QANLI FƏSADLARI





Az 2009/2235

ERMƏNİ QƏSBKARLIĞININ QANLI FƏSADLARI

# XOCALI QƏTLİAMI

263814 Az
908229
M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası
ARXİV
88/35
Azərbaycan Milli Kitabxanası

T3(2A) + X911.3

*İdeya rəhbəri, tərtib etdi və ön sözün müəllifi:* ***Aslan Xankişiyev***

***Redaktor:*** ***Adgözəl Rəhimov***

**«ERMƏNİ QƏSBKARLIĞININ QANLI FƏSADLARI XOCALI QƏTLİAMI»**
**Bakı, «MBM», 2009, 84 səh.**

**Kitabda ermənilər tərəfindən törədilən terrorlardan biri olan Xocalı faciəsinin səbəbləri və nəticələri araşdırılır.**

**© Aslan Xankişiyev**
**«MBM» - 2009**

Azərbaycan Milli Kitabxanası



| | |
|---|---|
| **Qərbi Azərbaycan** | **- dekabr, 1988-ci il** |
| **Xankəndi** | **- sentyabr, 1988-ci il** |
| **Xocalı** | **- 26.02.1992-ci il** |
| **Xocavənd** | **- 02.10.1992-ci il** |
| **Şuşa** | **- 08.05.1992-ci il** |
| **Laçın** | **- 17.05.1992-ci il** |
| **Kəlbəcər** | **- 01.04.1993-cü il** |
| **Ağdam** | **- 23.07.1993-cü il** |
| **Füzuli** | **- 23.08.1993-cü il** |
| **Cəbrayıl** | **- 23.08.1993-cü il** |
| **Qubadlı** | **- 31.08.1993-cü il** |
| **Zəngilan** | **- 29-30.10.1993-cü il** |

# ERMƏNİ VANDALİZMİ, ERMƏNİ QƏSBKARLIĞI, ERMƏNİ TƏCAVÜZÜ, ERMƏNİ TERRORU

Ermənilər tarix boyu çirkin siyasət yeridərək hissə-hissə Azərbaycan torpaqlarını dünyanın gözü qarşısında işğal edərək öz torpaqları kimi bütün dünyaya utanmadan həyasızcasına car çəkmiş və bu torpaqdarda guya nə vaxtsa erməni yaşadığını vurğulamışdırlar. Bu torpaqlarla kifayətlənməyən ermənilər «Böyük Ermənistan» yaratmaq xülyasıyla yaşamışdırlar. Əsrlər boyu böyük dövlətlərə özlərini şirin satıb Azərbaycan torpaqlarını Qana bulayıb ələ keçirən bu mənfur əməl sahibləri, Azərbaycanda faciələrlə nəticələnən terrorlar sahibinə çevrilmişdirlər. Tarixi varaqladıqca bir əsrdə 3-4 dəfə Azərbaycan xalqının başına olmazın müsibətlər açan ermənilər öz cinayətkar əməllərindən əl çəkməmişdirlər. Əvvəlindən sonuna qədər dəfələrlə Azərbaycan torpaqlarını işğal edən ermənilər qarşıya qoyduqları məqsədə doğru, planlı şəkildə irəliləyərək müəyyən ərazilərimizi müxtəlif yollarla zəbt edərək ələ keçirmiş və bu yolda hətta terrora, da əl atmışdırlar. Onların etdiyi terrorlar zamanı xalqımızın başına gələn faciələrdən artıq butun dünya məlumatlıdır. Bunlar 31 Mart soyqırımı, Xocalı faciəsi və digər sadalamaqla qurtarmayan tükənməz erməni faşizminin xalqımıza vurduğu sağalmaz yaralardır. Bu yaralar inanmıram ki, nə vaxtsa qasnağ bağlasın. Biz bu faciələri tarixi





ardıcıllıqla təhlil etmək və oxuculara çatdırmaq niyyətindəyik.

1991-ci ildə Rusiyada baş vermiş inqilabdan və bolşevik çevrilişindən məharətlə istifadə edən ermənilər «Böyük Ermənistan» yaratmaq yolunda yenidən hərəkətə gəldilər. Onlar mümkün qədər sürətlə silahlanır, çoxlu torpaq ələ keçirməkdən ötrü azərbaycanlılara qarşı qırğın planları hazırlayırdılar. Ümumiyyətlə, ermənilər 1905-1907, 1918-1920, 1948-1953-cü illərdə təkcə Ermənistan adlanan ərazidə deyil, Azərbaycan Respublikasının, demək olar ki, bütün ərazilərində xalqımıza qarşı vaxtaşırı qırğınlar və talanlar törətmişlər. Halbuki, ermənilər bu ərazilərə sonradan gəlmiş və həmişə də mütləq azlıq təşkil etmişlər.

1905-ci ildə olduğu kimi ermənilərin azərbaycanlılara qarşı soyqırımına 1918-ci ilin martında, məhz Bakıdan başlanılıb. Sonra bu iş zəncirvari şəkildə Şamaxıda, Qubada, Göyçayda və Azərbaycanın digər qəzalarında, o cümlədən Qarabağda, Zəngəzurda, Naxçıvanda və indiki Ermənistan ərazilərində xüsusi qəddarlıqla davam etdirilmişdir. Mart hadisələrinə ümummilli liderimiz Heydər Əliyev «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiya haqqında» 1997-ci il 18 dekabr tarixli fərmanı ilə qiymət vermişdir: «Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizlənmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır



Azərbaycan Milli Kitabxanası

məhrumiyyətlərə, milli faciə və məşəqqiyyətlərə, məruz qalmışdı. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən, min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq, kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri dağıdılıb viran edilmişdir». Hələ XVII əsrdən başlayaraq ermənilər xristian dini etiqadlarından istifadə edərək, Avropa dövlətlərinin üzünü Şərqə çevirməyə çalışmış, onların köməyindən istifadə edərək, «Böyük Ermənistan» yaratmaq xülyasını reallaşdırmaq fikirinə düşmüşlər. Bu işdə ermənilərə daha çox «canıyananlıq» edənlər əvvəlcə Roma papası, sonralar isə car Rusiyası olmuşdur. Bu da təbii idi ki, çünki Roma papası üçün xristianlığı Şərqə doğru genişləndirmək, I Pyotrun Cənub dənizlərinə doğru işğalçılıq planlarını həyata keçirən Rusiya üçün isə Qara dəniz və onun boğazlarını, həmçinin xəzərətrafı ərazilərə yiyələnmək idi. Ümumiyyətlə, bədnam qonşularımız zaman-zaman öz dövlətçiliklərini «bərpa etməyə cəhd göstərsələr də, əsas arzuları ürəklərində qalıb. Yalnız XX əsrdə Birinci Dünya müharibəsi, keçmiş Çar Rusiyasının süqutu və onun yerində Sovet İmperiyasının yaranması ermənilər üçün belə bir əlverişli şərait yaratmışdı.

Bildiyimiz kimi, XVIII əsrdən Qafqazı, xüsusən də Cənubi Qafqaz torpaqlarını ələ keçirmək üçün geniş hərbi fəaliyyətə başlayan çar Rusiyası artıq





XIX əsrin əvvələrində bu istəyinə tam nail ola bildi. Belə ki, Rusiya ilə İran arasında gedən müharibələr nəticəsində bağlanan 1813-cü il 12 oktyabr tarixli Gülüstan və 1828-ci il 10 fevral tarixli Türkmənçay müqavilələri nəticəsində Qafqaz tamamilə Rusiyanın əlinə keçdi. Elə bütün faciələr də bundan sonra başladı. Belə ki, əzəli Azərbaycan torpaqlarında ardıcıl olaraq ermənilərin kütləvi yerləşdirilməsi və azərbaycanlıların bütövlükdə qovulmasına start verildi. Bu məqsədlə erməni vilayəti adlı xüsusi inzibatı bölgə yaradıldı və o, sonradan İrəvan quberniyasına çevrildi. Tarixi faktlardakı rəqəmlər də dediklərimizi sübut edir. Fikir verin, 1828-1829-cu illərdə indiki Ermənistan adlandırılan və vaxtı ilə İrəvan xanlığı olmuş torpaqlara Yaxın Şərq bölgələrindən 130 min, sonrakı dövrlərdə isə daha 600 min erməni köçürüldü. Əlbəttə, ermənilərin Qafqazda bu cür çoxaldılması və möhkəmləndirilməsinin əsas səbəbi rus çarizminin bu ərazidə yetirdiyi xristianlaşdırma siyasəti idi. Bundan ruhlanan ermənilər azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirməyə başladılar. Təkcə 1918-ci ilin mart-aprel aylarında adı çəkilən ərazilərdə 50 mindən çox azərbaycanlı vəhşicəsinə qətlə yetirilmiş, evləri talan edilmiş, on minlərlə insan öz yurdundan didərgin salınmışdır. Bizim hesablarımıza görə, Şamaxı qəzasının 53 kəndində ermənilər 8027 nəfər azərbaycanlını qətlə yetirmişlər ki, onlardan da 4190 nəfər kişi, 2560 nəfər qadın, 1277 nəfəri isə uşaqlar olmuşdur. Ermənilərin



Azərbaycan Milli Kitabxanası

azərbaycanlıların evlərinə, mal-qara, əkin sahələrinə münasibətdə törətdikləri hərəkətlər, sözün əsl mənasında, vandalizimin, vəhşiliyin nümünəsi idi. Ümumi götürdükdə soyqırımlar və deportasiyalar zamanı 2 milyondan yuxarı azərbaycanlı ermənі vəhşiliyinin qurbanı olmuşdur. Gördüyünüz kimi, qısa müddət ərzində öz havadarlarının köməyi ilə soyqırımı və genişmiqyaslı etnik təmizləmələr aparılması nəticəsində faşist xislətli erməni millətçiləri qarşılarına qoyduqları məqsədə nail ola bilmişlər. Onlar öz yalanlarını erməniyə xas həyasızlıqla bütün dünyaya «doğru»kimi sırıyırlar. Buna görə də 15 ildən artıqdır ki, ölkəmizi təcavüzə məruz qoyan Ermənistanı yalnız son vaxtlar bir sıra beynəlxalq təşkilatlar təcavüskar dövlət kimi tanımığa başlayıb.

Azərbaycan tərəfi belə hesab edir ki, yaranmış şəraitdə təcavüzün nəticələrini aradan qaldırmaq və problemin hərtərəfli şəkildə nizamlanmasına dair sülh danışıqlarını davam etdirmək lazımdı. Əgər sülh danışıqları bir nəticə verməzsə, Azərbaycan digər yolları nəzərdən keçirməlidir. Şübhəsiz ki, bütün dünyada baş vermiş müharibələr kimi, Qarabağ münaqişəsi də qurtarmalıdır. Lakin bu, yalnız o zaman baş verə bilər ki, Ermənistan əsassız ərazi iddialarından əl çəksin, beynəlxalq hüquq normalarına riayət etsin, azərbaycanlı qaçqın və məcburi köçkünlər öz yurd-yuvalarına qayıtsınlar. Ermənilərin başqa çıxış yolları da yoxdur. Çünki qloballaşan dünyamızda hər şey göz qabağındadır. Silahla, zor tətbiq etməklə heç nəyə nail olmaq





mümkün deyil. Bütün problemlər sülhlə və qarşılıqlı anlaşma şəklində həll edilməlidir. Əgər Ermənistan heç bir məntiqə sığışmayan iddialarından əl çəkməsə, onu beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi gözləyir. Azərbaycan Ermənistana çox güzəştə gedib. Artıq güzəst yeri qalmayıb. Çünki ermənilərə güzəştə getdikcə onların iştahları daha da artır. Onların son vaxtlar Şimali Qafqazdakı Rusiya vilayətlərində və qonşu Gürcüstan dövləti ərazisindəki torpaq iddiaları da bunun bariz nümunəsidir.

Azərbaycan xalqı 300 ildir ki, öz tarixi etnik torpaqlarından didərgin salınır. Düşünülmüş və məqsədyönlü şəkildə həyata keçirilən məkrli siyasət kütləvi deportasiya və soyqırımı ilə müşayiət olunmuşdur. Nəticədə minlərlə, milyonlarla soydaşımız erməni şovinizminin qurbanına çevrilmişdir. Təəssüf ki, uzun müddət taleyüklü bu məsələlərə biganə qalmış, hadisələrə düzgün qiymət verilməmişdir. Düzdür, Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdi. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nədzində xüsusi qurum –Fövqəladə Təhqiqat Komissiyası yaradıldı.1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Ümummilli Matəm Günü kimi qeyd edilmişdi. Əslində isə bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək



Azərbaycan Milli Kitabxanası

cəhd idi. Lakin Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatdırılmasına imkan vermədi.

Xalqımıza qarşı aparılan soyqırımı siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında da təhrif olunur, ictimai - fikir çaşdırılırdı. Ermənilərin sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 1980-cı illərin ortalarında daha da güclənən antiazərbaycan təbliğatına Azərbaycan rəhbərliyi vaxtında qiymət vermədi. Daha sonra 1998-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ münaqisəsinin ilkin mərhələsində yüz minlərlə azarbaycanlının öz tarixi-etnik torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Bunun ardınca Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə qatılması haqqında verilən, heç bir məntiqə sığışmayan qərarı respublikada böyük narazılıqa qarşılandı. Keçirilən kütləvi mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənilsə də, o vaxtı Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən yenə də əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq, 1990-cı ildə daha da güclənən xalq hərəkatını boğmaq məqsədilə yanvar ayında Bakıya sovet qoşun birləşmələri yeridildi. Nəticədə yüzlərlə dinc əhali məhv edildi, yaralandı, şikəst edildi və digər fiziki təzyiqlərə məruz qaldı. O vaxtkı rəhbərliyin siyasi səbatsızlığı quduzlaşmış erməni separatçılarının daha da əl-qol açmasına şərait yaratdı.1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə





ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməmiş divan tutdu.

Tarixə Xocalı soyqırımı kimi həkk olunmuş bu qanlı faciə minlərlə azarbaycanlının məhv edilməsi, əsir və şəhərin yerlə yeksan edilməsi ilə qurtardı. Bütün bu hadisələrə yalnız ümummilli lider, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra düzgün siyasi qiymət verildi. Öz xalqını, doğma Azərbaycanı canından da artıq sevən ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın müstəqilliyi, Respublika Günü münasibətilə söylədiyi nitqində demişdir:

«Azərbaycan xalqına bu dövrdə vurulan ən böyük zərbələrdən biri də 1947-1948-ci ilərdə Azərbaycan xalqına qarşı Sovet hakimiyyəti tərəfindən edilmiş ən böyük ədalətsizlikdi.Təəssüflər olsun ki, tarixçilərimiz və hamımız nədənsə, bu hadisəyə o vaxtlar da və indi də, xüsusilə dövlət müstəqilliyimizi əldə edəndən sonra da doğru-düzgün qiymət verə bilməmişik». Bəli, ümummilli liderimizin bu iradı çox yerində, ədalətli və haqlı irad idi. Ona görə də dahi rəhbər xalqımıza qarşı əsrlər boyu davam etdirilmiş soyqırımların hərtərəfli tədqiq edilməsi, əsl həqiqətlərin üzə çıxarılması məqsədi ilə 18 dekabr 1997-ci ildə «1948-1953-cü illərdə azərbaycanlıların Erməristan SSR ərazisindəki tarix-etnik torpaqlarından kütləvi surətdə deportasiya haqqında» və 26 mart 1998-ci il tarixli «Azərbaycanlıların soyqırımı haqqında» tarixi əhəmiyyətli fərmanlar imzalandı. Beləliklə, xalqımıza qarşı törədilmiş bütün soyqırımlara,

vəhşiliklərə eyni zamanda siyasi və tarixi ədalətsizliklərə xalqın ümummilli liderinin iradəsi ilə düzgün qiymət verildi. O ki, qaldı soyqırımın bütün dünya ictimaiyyətinə çatdırılması məsələsinə, hələ 1998-ci ildə ümummilli liderimiz Heydər Əliyevin tövsiyəsi ilə martın 31-nin Azərbaycanlıların soyqırımı günü kimi qeyd olunması haqqında qərar qəbul edildi. Bununla əlaqədar xüsusi bəyanat da verildi. Bəyanatın nüsxələri tanınması üçün BMT-yə, ATƏT-ə, Avropa Şurasına, Müstəqil Dövlətlər Birliyinə, dünya ölkələrinin parlametlərinə və hökümətlərinə göndərilmişdir. Bundan əlavə, hər il mart ayının 31 də ölkə ərazisində faciə qurbanlarının xatirəsi kimi yad edilir, kütləvi tədbirlər keçirilir. Hər il bu mövzuda onlarca kitab və monoqrafiya yazılır. Ancaq mən deyərdim ki, bunlar hələ də kifayət deyil. Yadda saxlamalıyıq ki, biz hiyləgər düşmənlərlə üz-üzəyik. Onlar 300 ildən çoxdur ki, Avropada, Amerikada « Böyük Ermənistan» yaratmaq xülyası ilə təbliğat aparırlar. Öz yalanlarını həmişə doğru kimi təqdim edirlər. Bir sözlə, onları öz fikirlərindən döndərmək mümkün deyil. Biz dünya xalqlarına və dövlətlərinə ermənilərin əsl simasını açıb göstərməliyik. Bu isə çox çətin yoldur. Ancaq uğur əldə etmək istəyiriksə, istər biz, istərsə də qardaş Türkiyə dövləti bütün imkanlardan istifadə etməlidir.Türkiyə dövləti əvvəllər ermənilərin bu cür sərsəmləmələrinə fikir verməmiş, Osmanlı arxivlərindən ermənilərin türklərə qarşı törətdikləri qırğınlara aid sənədləri açıb dünyaya göstərməmişdi. Bundan istifadə edən





ermənilər əvvəlcə guya 1915-ci ildə 600 min ermənininin məhv edildiyini bəyan etmiş, türklərin buna reaksiya vermədiyini gördükdə isə bu rəqəmi 1 milyona, sonra 1,5 milyona, hətta son zamanlar 2 milyona çatdırmışlar. İndi Türkiyə hökuməti öz arxivlərini tarixçilərin üzünə açır. Və bu prosesə, əlbəttə ki, erməniləri də dəvət edir. Ancaq ermənilər «soyqırım» məsələsini müzakirə etmək təklifini rədd edir. Çünki çox yaxşı bilirlər ki, onların dünyaya «sübüt etmək» istədikləri 1,5 milyon erməni o vaxt Türkiyədə yaşamamışdır ki, o qədər soyqırıma da məruz qalsın. Ermənilərin xalqımızın başına gətirdiyi amansız faciələrdən biri də keçən əsrin faciəsi adı ilə tarixdə qalan Xocalı faciəsidir. 1992-cı ilin 25 fevralından 26-na keçən gecə erməni millətçiləri xocalıları qanına qəltan etmiş növbəti soyqırım törətmişdirlər. Törətdikləri qırğın nəticəsində 8 ailə yer üzündən tamamilə məhv edilərək silinmiş, 25 uşaq hər iki valideyinini, 130 uşaq valideyinlərindən birini itirmişdir. Ümumilikdə həmin gecə 613 nəfər soydaşımız qəddarlıqla, vəhşicəsinə öldürülmüşdür. Yüzlərlə insan yaralanmış, 1275 nəfər Azərbaycan vətəndaşı ermənilər tərəfindən əsir götürülmüşdür. Əlbəttə Xocalı faciəsi təsadüfü və ya müharibə nəticəsində yaranmış hadisə deyildir. 200 ildən artıq bir dövrdə erməni millətçiləri, şovinistləri tərəfindən xalqımıza qarşı törədilən növbəti qətliyam idi. Erməni faşistləri havadarlarına arxalanıb 366-cı motoatıcı alayın koməyindən istifadə edərək, silahsız insanlara, uşaqlara, körpələrə qarşı bu amansız



Azərbaycan Milli Kitabxanası

faciəni, Xocalı qətliyamını törətmişdirlər. Xocalının yerlə yeksan olunması səbəbləri o vaxtkı hakimiyyətin ölkədə baş verən hadisələrə laqeyid, etibarsız və zəiflik göstərməsi ucbatından, Qarabağda baş verən müharibə zamanı yaranmış ardıcıl uğursuzluqlar ucbatından törədildiyini qeyd edənlər də mövcuddur. Xocalı faciəsi dünyada törədilmiş ən ağır cinayət və soyqırımlarından biridir.

***Aslan Xankişiyev***





# XOCALI FACİƏSİ

25 fevral 1993-ci il. Mühdhiş gecə, saat 22-23 radələri. Həmin vaxt 4-cü ordunun 23-cü diviziyasının tərkibinə daxil olan 366-cı alayın 10 tankı, 16 BTR-i, 9 PDM, onların ardınca - dörd tərəfdən sayı-hesabı bilinməyən rus-erməni əsgərləri irəliləyərək, Xocalı şəhərini atəşə tutmuşlar. 8 minə yaxın əhalisi olan şəhər bir gecənin içərisində yerlə-yeksan edildi. Erməni silahlı qüvvələri tarixdə misli görünməmiş vəhşiliyə, qəddarlığa əl atdılar. İnsanlığa sığışmayan, faşist işğalçılarından da betər zülmkar olan ermənilər əsrin qanlı faciəsini törətdilər.

O vaxt Xocalı rayonunun prokuroru Hacı Atakişi Atakişiyevlə söhbətimiz də o müdhiş hadisə barədə oldu: «Xocalı o vaxtı bəzi üzdəniraq rəhbər işçilərin, vəzifə davası edənlərin, savadsız kadrların, qeyrətsizlərin xəyanətinin qurbanı oldu. Heydər Əliyev o vaxt hakimiyyətdə olsaydı, Xocalı soyqırımi da baş verməyəcəkdi.

**- Atakişi müəllim, Xocalıya qarşı ilk təhlükəni nə vaxt hiss etdiniz?**

- Xocalı rayonu yaradılan gündən həmin rayonun prokuroru vəzifəsinə təyin edildim. Bu vaxt artıq qorxunc təhlükənin baş verəcəyini hiss edirdik. 1991-ci il noyabr ayının 28-də Əsgəran rayonunun içərisində bizim UAZ markalı maşında 3 nəfər öldürüldükdən sonra Əsgəran yolu bağlandı. Bir neçə gündən sonra ermənilər Əsgəranda yolu böyük beton panellərlə kəsdilər. Xocalıların hava xətti ilə bircə çıxış yolu qaldı. Vertolyotlarla sursat, ərzaq və digər təchizat vaxtında təmin olunurdu. Xankəndində ermənilərin

silah istehsal edən zavodunun işini dayandırmaq üçün elektrik xətlərini kəsdirmişdik. Son üç ay idi ki, işığımız da yanmırdı. Azərbaycan Müdafiə Nazirliyi Xocalı adlı bir rayonu tamamilə unutmuşdu. Fevralın 13-dən 25-nə kimi Ağdamda qərargahda olub respublika rəhbərliyini vəziyyətlə məlumatlandırır, müdafiəni yaratmaq üçün tədbir görülməsini xahiş edirdim. Bizi eşidən yox idi. Mən Xocalıda olanda ilk dəfə milis şöbəsində 7 avtomat var idi. Qalan silahların hamısını özümüz öz gücümüzlə və yaxud dolayı yolla pulla alıb Xocalı sakinlərindən bir qrupunu silahlandırmışdıq. Amma hazırladığımız əməliyyatlar dəfələrlə kimlər tərəfindənsə pozulurdu. Vəziyyət olduqca ağır idi. Xocalı göz görə-görə əldən gedirdi.

**- Yaranmış vəziyyət barədə ölkənin o vaxtıkı rəhbərliyinə məlumat verdinizmi?**

- Mən hələ 1991-ci il dekabr ayının 27-də Ayaz Mütəllibova və Baş prokuror Murad Babayevə təcili teleqramla müraciət etmişdim. Teleqramda yazmışdım: **«Sizə müraciət edərək bildirirəm ki, DQMV-nin Cəmilli və Tub kəndlərindən azarbaycanlıları erməni quldurları çıxartmışlar. Malıbəylidə vəziyyət olduqca ağırdır. Dağlıq Qarabağda erməni quldurları üçün ən təhlükəli yer Xocalıdır. Çünki Xocalı Əsgəranın və Xankəndinin ortasında yerləşir. Burada dəmir yolu və aeroport vardır. Xocalı şəhərinə Əsgəran və Xankəndi arasından olan yol 25-30 gündür ki, kəsilmişdir. Gediş-gəliş yoxdur. Bu günə kimi bir kömək olmadan çətin vəziyyətdə yaşayırıq. Xüsusi yerli milis şöbəsi, aeroport milisi, öz yaratdığımız Milli müdafiə dəstələri fədakarlıq göstərirlər. Buna baxmayaraq, vəziyyət getdikcə çətinləşir. Vertolyot gəlmir, DQMV üzrə qərargah indiyə kimi bizə heç bir kömək edə bilməmişdir. Ərzaq maşınımız yoxdur. Müharibə vəziyyətində bütün bunlara dözmək olar. Lakin bir şeyə dözmək mümkün deyil, hər şeyimiz qurtarmışdı. Bizi başa düşün ki, nə demək istəyirik. Artıq xalq Xocalını tərk etmək üzrədir. Xocalı əhalisi Xocalını tərk etdikdə Əsgəranla Xankəndi arası açılacaq. Azərbaycanın çəkdiyi əziyyətlər hədər gedəcək. Sonra DQMV-də vəziyyət daha da ağırlaşacaq. Onu bilirəm ki, hələ Xocalı şəhərini bu günə kimi heç kim gözüylə görüb, müşahidə edib məlumat çatdırmayıb. Sizdən artıq dərəcədə xahiş edirik ki, bizə lazım olan şeyləri çatdırasınız. Xocalıda heç bir idarə, müəssisə, məktəb, kolxoz və sovxoz işləmir, fəaliyyəti dayanmışdır. Yaralıları heç bir yerə aparmaq mümkün deyil. Adi sarğı materialı da yoxdur. Belə şəraitdə yaşamaq çətindir. Biz sizdən taxirə salınmadan kömək və ümid gözləyirik. Sonra gec olar… Bizə təcili kömək edin».**





Səsimizə səs verən olmadı. Vəziyyətin son dərəcə ağır olduğunu görüb 1992-ci il fevralın 25-də yenə də Ayaz Mütəllibova, Baş porkuror Murad Babayevə və Azərbaycan Teleradio Şirkətinin «24 saat» proqramına daha bir teleqram göndərdim.

**«Xocalı rayonu artıq əldən gedir. Bütün bu hadisələr Xocalının üstündədir. Xocalı gedərsə, DQMV ermənilərin olacaq. Ona görə də Əsgəran aradan götürülməlidir. Artıq 25 gündür Xocalıya heç bir vertolyot işləmir. Hazırda Xocalıda 7 min əhali yaşayır. Qadın, uşaq, qoca və s. Əgər bizə kömək etməsəniz 4 illik zəhmət hədər gedəcək. Biz sizdən təxirəsalınmaz**



Azərbaycan Milli Kitabxanası
M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası
90829

**kömək gözləyirik. Xocalı Azərbaycanın taleyini həll edir».**

Bu, axırıncı teleqrama da cavab verən olmadı. Axşam saat 22 radələrində Xocalının telefonçusu Gülşən məni telefona çağırıb dedi ki, Xocalı hərbi texnika ilə hər bir tərəfdən mühasirədədir. Texnika yavaş-yavaş şəhərə yeridilir. Təxminən gecə saat 24.00-a qədər hər beş dəqiqədən mənə bu haqda məlumat verildi. Mən isə məlumatı dərhal Prezident Aparatına, Baş prokurora, Müdafiə Nazirliyinə, Bakı Şəhər İcra Hakimiyyətinə çatdırdım. Ancaq heç bir faydası yox idi. Şuşanın hərbi komendantı Rəhim Qazıyevlə 2 dəfə telefonla danışdım. Gecə saat 1-ə işləmiş telefon əlaqələrimiz də kəsildi.

Nəticə dəhşətli oldu: 613 nəfər vəhşicəsinə öldürüldü, 1.275 nəfər əsir düşdü, 8 ailə büsbütün məhv edildi, 27 ailənin hər birindən 1 nəfər sağ qaldı, 230 ailə başçısını itirdi, 200 nəfərin ayaqları soyuqdan qanqrena oldu. İnsanlara misli görünməmiş əzab-əziyyət verilirdi. Qanın içində olan ananın döşlərini əmən körpəni görməyimi indi də unuda bilmirəm.

**- Xocalı faciəsi barədə həqiqət xalqa çatdırıldımı?**

- Fevral 27-də televiziyanın «24 saat» proqramından məlumat verildi ki, Xocalı şəhəri bir neçə yerdən atəşə tutulmuşdur. İki nəfər həlak olmuş, yaralananlar vardır. Düşmənin atəş nöqtələri susdurulmuşdur. Prezidentin mətbuat xidmətinin yaydığı məlumatda isə deyilirdi: «Xocalının erməni birləşmələri tərəfindən tutulması haqqında vahiməli şayiələr həqiqətə uyğun deyildi... Xocalı müqavimət göstərir. Mühəsirəyə alınmış şəhərin müdafiəsini möhkəmləndirmək üçün tədbirlər görülmüşdür».





Fevrvlın 26-da İranın xarici işlər naziri Vilayət Bakıda idi. A.Mütəlibovla görüşürdü. Xocalı faciəsi haqqında bir kəlmə də olsun danışılmadı. Fevralın 27-də isə dövlət qəzetlərində belə bir məlumat dərc olunmuşdu: «Fevralın 26-na keçən gecə Xocalıya bir neçə istiqamətdə hücüm edilib. Şəhərin müdafiəçiləri və milli ordu bölmələri düşmən basqınlarının qarşısını alır, onun saysız-hesabsız hücümlarını dəf edə bilirlər. Hazırda vəziyyət yenə gərgindir. Lüzumsuz itkilərin qarşısını almaq məqsədilə əhalinin qəsdən köçürülməsi təşkil edilmişdi. Xocalının erməni birləşmələri tərəfindən tutulması haqqında vahiməli şayiələr həqiqətə uyğun deyil. Mühasirəyə alınmış şəhərin müdafiəsini möhkəmləndirmək üçün tədbirlər görülmüşdür». Görürsünüzmü, misli görünməmiş qəddarlıqla Xocalını bir gecənin içində yerlə-yeksan edən ermənilərin vəhşilikləri necə ört-basdır edilirdi. Erməni faşistlərinin törətdíkləri qeyri-adi vəhşiliyinin ağlagəlməz nəticələrini həyatını təhlükəyə atan Çingiz Mustafayev lentə aldığı kadrlarda bütün dünyaya bəyan etdi. Məhz Çingiz Mustafayev hönkür-hönkür ağlaya-ağlaya erməni faşistlərinin Xocalı camatının başına gətirdiyi müsibətləri, vəhşicəsinə öldürülmüş uşaqların, qadınların, qocaların dərisi soyulmuş, gözləri çıxardılmış meyitlərini lentə köçürmüş və dünyaya çatdırmışdır.

**- Xocalıya Bakıdan kömək getməsə də, yerli sakinlər son damla qanlarına qədər qəhrəmanlıqla vuruşdular. O anları necə xatırlayırsınız?**

- Təbii ki, hər bir Xocalı sakini doğma torpağı uğrunda mərdliklə vuruşurdu. Rayon İcra Hakimiyyətinin başçısı Elman Məmmədovun, mənim,



Azərbaycan Milli Kitabxanası

rayon milis şöbəsinin rəisi Sabir Məmmədovun əynindən hərbi paltar çıxmırdı. Xocalı aeroportunun komendantı, ermənilərin qənimi mayor Əlif Hacıyev «Xocalı» batalyonunun komandiri, «Mixaylo» ləqəbli Tofiq Hacıyev, Bakıdan gəlmiş 21 nəfər könüllülər dəstəsinin rəhbəri Aqil Quliyev, Hikmət Nəzərli və digərləri bir addım da olsun geri çəkilmədilər. Ancaq ağır zirehli maşınlarla, ardınca ən müasir silahlarla silahlanmış düşmənin qarşısında, arxasız neyləmək olardı? İndi onlar Azərbaycanın Milli Qəhrəmanı kimi hər bir soydaşımızın qəlbində əbədi yaşayırlar.

**- Bəs kimdir günahkar?**

- Ən əvvəl qaniçən, qəddar ermənilər, sonra o vaxtlar erməniləri azərbaycanlıların üstünə qaldıran, millətlər arasında ayrı-seçkilik toxumu səpən, milli ədavəti qızışdıran, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağı ermənilərə pay verən, 366-cı motoatıcı alayını əliyalın xalqın üstünə göndərən Mixail Qorbaçov, öz vəzifəsini qorumaq naminə dəridən-qabıqdan çıxan ölkənin o vaxtkı prezidenti Ayaz Mütəllibov, o vaxt hakimiyyəti ələ keçirmək istəyən bəzi qüvvələr. Əlbəttə, o vaxt böyük tarixi şəxsiyyət Heydər Əliyev hakimiyyətdə olsaydı, Xocalı faciəsi baş verməzdi, xalqımızın başına bu müsibətlər də gətirilməzdi.

*Müsahibəni apardı:*
***Əliqismət Bədəlov,***
***«Xalq qəzeti»***







Azərbaycan Milli Kitabxanası



















Azərbaycan Milli Kitabxanası



















Azərbaycan Milli Kitabxanası

















Azərbaycan Milli Kitabxanası















































# XOCALI FACİƏSİ DÜNYANIN GÖZÜ İLƏ

**ABŞ**

Amerika Birləşmiş Ştatlarının İndiana Unversitetində təhsil alan azərbaycanlı tələbələr və aspirantlar Xocalı soyqırımının 13-cü illə bağlı sərgi təşkil etmişlər. Hazırda İndiana Unversitetində elmi ezamiyyətdə olan azərbaycanlı alim Səbinə Manafova Qafqazdakı münaqişələrə həsr olunmuş yığıncaqda Xocalı soyqırımı ilə bağlı mərasim keçirmişdir. Bu unversitetin azərbaycanlı tələbələri və aspirantı ABŞ Konqresindəki çıxışına görə konqressmen Den Bartona təşəkkür məktubu göndərmişlər. Nyu-Cersi ştatında fəaliyyət göstərən Amerika-Azərbaycan Cəmiyyətinin sədri Tomris Azərinin verdiyi məlumata görə, Xocalı soyqırımının 13-cü ildönümü ilə bağlı etiraz yürüşü keçirilmişdir. Bundan başqa cəmiyyətin adından bütün ABŞ ictimayyətinə, siyasi xadimlərə və mətbuata ünvanlanmış xüsusi bəyanat yayılmışdır. Vaşinqtonda fəaliyyət göstərən Amerika-Azərbaycan Ticarət Palatası isə Azərbaycan icması ilə birlikdə Ermənistan səfirliyinin qarşısında piket keçirmişlər.

**Böyük Britaniya**

London İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin (London Schol of Economic And Political Science) nəzdindəki Azərbaycan Cəmiyyətinin prezidenti Taleh Heydərovun göndərdiyi məlumatda deyilir ki, fevralın 21-də Xocalı faciəsinin on üçüncü ildönümü

ilə bağlı «Həll olunmamış münaqişə» adlı tədbir keçirilmişdir. Böyük Britaniyanın ölkəmizdəki keçmiş səfiri Rocer Tomasin sədrliyi ilə keçən tədbirdə Azərbacanın Böyük Britaniyadakı səfiri Rafael İbrahimov, məşhur Amerika jurnalisti və yazıçı Tomas Qoltz və Edinburq Unversitetinin professoru, Dünya Azərbaycanlıları Konqresinin vitse-prezidenti Qulamrza Səbri Təbrizi çıxış etmişlər. Professor Səbri Təbrizi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə, yazıçı T.Qoltz isə Xocalı faciəsi haqqında danışmışlar. Səfir R.İbrahimov Azərbaycanın işğal olunmuş ərazilərində ermənilər tərəfindən qeyri-qanuni məskunlaşdırılma məsələsinə daha ətraflı toxunmuş və bu faktı təsdiqləyən fotoşəkilləri tədbirin iştirakçılarına təqdim etmişdir. Görüşdə London İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin tələbələri ilə yanaşı Böyük Britaniyanın Xarici İşlər Nazirliyinin, ölkədə akkreditə olunmuş səfirlikləri, biznes dairələri nümayəndələri, ingilis-Azərbaycan cəmiyyətinin və Azərbaycan diasporunun üzvləri, jurnalistlər iştirak etmişlər.

**Almaniya**

2005-ci il fevralın 24-də Berlində Türkiyə-Almaniya iş adamları birliyinin konfrans salonunda Xocalı soyqırımının 13-cü ildönümünə həsr olunmuş mərasim keçirilmişdir. Avropa Azərbaycanlıları Konqresinin və ölkəmizin Almaniyadakı səfirliyinin birgə təşkil etdikləri mərasimdə Avropa Azərbaycanlıları Konqresinin, Azərbaycan





Cəmiyyəti Federasiyasının nümayəndələri, Berlindəki Türkiyə səfirliyinin əməkdaşları, Berlin Türk Camaatı Birliyinin rəhbərliyi, Türkiyə-Almaniya iş adamları birliyinin rəyasət heyəti, Almaniyada yaşayan soydaşlarımız, azərbaycanlı tələbələr, «Yeni körpü» jurnalının redaksiya heyəti, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Feldyeger Xidmətinin Almaniyada ezamiyyətdə olan əməkdaşları, Almaniya ictimaiyyətinin nümayəndələri və kütləvi informasiya vasitələrinin təmsilçiləri iştirak etmişlər.

Mərasimin keçirildiyi salonda Azərbaycanın dövlət bayrağı asılmışdı, Xocalı soyqırımının dəhşətlərindən bəhs edən fotosərgi təşkil edilmişdi. Mərasimə toplaşanlar Xocalı qəhramanları və şəhidlərinin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Xocalı soyqırımının ildönümü münasibətilə Azərbaycan xalqına müraciət»i oxunmuş, çıxışlar olmuşdu.

Natiqlər qeyd etmişlər ki, işğalçı erməni hərbi birləşmələri 13-il öncə fevralın 26-da Azərbaycanın Xocalı şəhərini yer üzündən silmiş, dinc, silahsız, müdafiəsiz insanları vəhşicəsinə qətlə yetirmişlər. Azğınlaşmış, qəddar, amansız erməni millətçiləri və onların havadarları həmin müdhiş soyqırımı gecəsində hətta qadınlara, uşaq və qocalara rəhm etməmiş, məhv etdikləri insanların meyitləri üzərində təhqiramiz hərəkətlər törətmişlər.



Azərbaycan Milli kitabxanası

Sonra göstərilən «Azərbaycan qaçqınları» sənədli filmində mərasim iştirakçılarına Xocalı faciəsinin dəhşətləri nümayiş etdirilmişdir. Qardaş Türkiyənin TRT, TDI və «kanal-7» televiziya studiyaları mərasimdən çəkilişlər aparmışlar.

Sonra da ehsan verilmişdir.

***Yusif Xəlilov***
***AzərTac-ın xüsusi müxbiri***

**Fransa**

Azərbaycanın Fransadakı səfirliyi XX əsrin tarixinə səhifə kimi yazılmış Xocalı soyqırımının 13-cü ildönümü ilə əlaqədar «Xocalı faciəsi» adlı sənəd yaymışdır. Sənəddə dünya ictimaiyyətinə özünü yazıq millət kimi sırıyan ermənilərin 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə 7 minlik əhalisi olan Xocalı şəhərinə hücum edərək, günahsız dinc əhaliyə qarşı törətdikləri vəhşiliklərdən bəhs edilmişdir. Sənəddə ermənilərin son iki əsrdə azərbaycanlılara qarşı soyqırımın törətmələri. Xocalı faciəsi zamanı hətta qadın, uşaq və qocalara belə aman verməyərək bir gecənin içərisində 613 nəfəri qətlə yetirmələri, 1275 nəfəri girov götürmələri barədə Fransa ictimaiyyətində ətraflı məlumat verilmişdir. Ermənistan-Azərbaycan münaqişəsi tarixinin ən qanlı səhifəsi olan Xocalı faciəsinə indiyə qədər beynəlxalq aləmdə siyasi hüquqi qiymət verilməməsi, erməni vəhşiliklərinə dünya ictimaiyyətinin göz yumması sənəddə xüsusi vurğulanmışdır.





Ərazilərimizin 20 faizinin Ermənistan tərəfindən işğal edilməsi, bir milyondan artıq azərbaycanlının silah gücünə öz ata-baba ocaqlarından zorla çıxarılması və onların uzun illərdən bəri qaçqın və məcburi köçkün kimi ağır şəraitdə yaşamaları, erməni qəsbkarlığının, ölkəmizə vurduğu maddi və mənəvi zərərlər, işğal olunmuş ərazilərdə xalqımıza məxsus tarixi abidələrin və digər obyektlərin dağılması barədə faktların öz əksinə tapdığı sənəd Fransa rəsmilərinə, Parisdə akkreditə olunmuş diplomatik nümayəndəliklərə, beynəlxalq təşkilatlara və yerli kütləvi informasiya vasitələrinə də göndərilmişdir.

***Əsgər Əliyev***
***AzərTac-ın xüsusi müxbiri***

Azərbaycan Milli Kitabxanası

**Erməni hərbi quldurları aylarla tam mühasirədə saxlanılan Xocalı şəhərini yerlə yeksan etdilər. Köməksiz mülki əhali azğın bir amansızlıqla qətlə yetirildi. Südəmər körpələrə, əlsiz-ayaqsız qocalara, qadınlara, uşaqlara belə aman verilmədi. Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırımı eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir.**

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Xocalı soyqırımı qurbanlarının ailələrinə müraciətindən:**

*1 mart, 1994-cü il*

**«Xocalı soyqırımı təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı törədilmiş cinayətdir».**

Xocalı faciəsi barədə danışarkən qanlı qırğının düşünülmüş, aylarla hazırlanmış soyqırımı olduğunu qeyd etməliyik. Dünya ictimaiyyətinə özünü məzlum xalq kimi sırıyan ermənilər 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalını yer üzündən silməklə soyqırım siyasəti yeritdiklərini bir daha təsdiqlədilər. Erməni milləti terrorçu xislətini bildirərək, uşaqlara, qadınlara və analara belə rəhm etmədən Ermənistan silahlı qüvvələri, insan hüquqları ilə bağlı bütün beynəlxalq normaları, o cümlədən müharibənin aparılması və əsirlərin hüququ barədə Haaqa və Cenevrə





konvensiyalarının müddəalarını kobudcasına pozaraq, bütün mütərəqqi bəşəriyyətə qarşı qanlı cinayətlər törətdilər. Xocalı soyqırımı zamanı 613 nəfər amansızlıqla qətlə yetirildi. Onların 63-ü uşaq, qadın, 70-dən çoxu isə analar idi. Barbarlar 8 ailəni bütövlüklə məhv etmişdirlər. Ermənilər tərəfindən soydaşlarımız itgin düşmüş, 1000 nəfərdən çox dinc sakinlər müxtəlif dərəcədə şikəst olmuşdurlar.1275 nəfər isə əsir götürülmüşdü. Çox təəssüf ki, əsir götürənlərin əksəriyyəti hələ düşmən əlindədir. Yəni, bu ideya bir mənalı şəkildə bütün cəmiyyətin gözü qarşısında başqa bir xalqa qarşı törədilən soyqırım aktı idi.

Xocalı soyqırımı barədə söhbət açarkən, günahkar kimin olduğu bilinməli və o şəxs cəzalandırlmalıdır. Belə ki, müstəqil Azərbaycanın ilk prezidenti olmuş Ayaz Mütəllibov millət başçısı kimi and içərkən ölkənin hər bir vətəndaşının taleyinə biganə qalmayacağını söyləmişdi. Ancan yuxarıda da qeyd etdiyimiz kimi, Xocalı şəhəri aylarla müharisədə qalsa da, Mütəllibov nəinki bir sakinin, hətta bütöv bir şəhərin taleyinə biganəlik nümayiş etdirdi. Halbuki, Xocalı faciəsinin qarşısını birmənalı şəkildə ala bilərdi və bu onun vəzifəsi idi. Fəqət, yalnız öz şəxsi mənfəəti haqqında düşünən A. Mütəllibov bu addımı atmadı. Üstəlik, hadisədən bir neçə gün keçməsinə baxmayaraq, dövlət orqanları o boyda faciəni xalqdan gizlətməyə çalışırdı. Britaniya, Fransa və Finlandiya mətbuatı bütöv bir Azərbaycan şəhərinin yerlə-yeksan edildiyini, yandırıldığını, şəhər əhalisinin başdan-başa gülləbaran edildiyini yazdığı halda, Ayaz



Azərbaycan Milli Kitabxanası

Mütəllibova xidmət edən informasiya vasitələri bildirirdilər ki, Xocalıda iki nəfər azərbaycanlı öldürülüb. Bu isə sadəcə məsuliyyətsizlik yox, xalq qarşısında cinayət əməli idi. Məhz bu səbəbdən də Azərbaycan Respublikasının Milli Məclisi 1994-cü ilin fevralında ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Xocalı soyqırımını müzakirə edərkən, o qanlı faciənin günahkarları sırasında Kreml siyasi işbazlarının və Ermənistanın separatçı rəhbərlərinin adı ilə yanaşı, xalqa zidd mövqe tutan və çoxsaylı cinayətlər törətmiş Ayaz Mütəllibovun da adı dönə-dönə çəkilmişdir. Eyni zamanda hakimiyyət uğrunda yolverilməz mübarizə üsullarını məqbul sayan müxalifət rəhbərləri də Xocalı faciəsinə görə məsuliyyət daşıyırdılar. Bütün bunlar parlamentin 11 fevral müzakirələrində faktlar və sübutlar əsasında dəfələrlə səsləndirilmişdir.

**Yeri gəlmişkən, o zaman Azərbaycan müxalifətinə rəhbərlik edən şəxslər ayaz Mütəllibovdan sonra hakimiyyətə gəlmiş, iqtidarda olduqları müddətdə nə 20 Yanvar faciəsinə, nə də Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilməsinə cəhd etməmişdirlər. Hər iki qanlı faciəyə hüquqi-siyasi qiymət verilməsini məhz ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıtmasından sonra - 1994-cü ilin fevral-mart aylarında mümkün olmuşdu. Bu fakt Azərbaycan Prezidenti İlham Əliyevin «Xocalı soyqırımının ildönümü Azərbaycan xalqına müraciət»ində də (23 fevral 2005-ci il) öz əksini tapır: «Müxalifətdə olan qüvvələr isə həmin dövrdə ümumxalq müsibətindən hakimiyyətə gəlmək üçün əlverişli vasitə kimi istifadə etmişdirlər. Yalnız**





**ümummilli liderimiz Heydər Əliyevin hayimiyyətə qayıdışından sonra bu qanlı cinayət siyasi-hüquqi qiymətini almış, onun dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən soyqırımı kimi tanınması üçün tədbirlər görülmüşdür».**

Prezident adı çəkilən müraciətdə də göstərir ki, bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və beynəlxalq hüququn prinsipləri əsasında həll edilməsi üçün kəsərli addımlar atılır və bu addımlar öz müsbət nəticələrini verməkdədir. Azərbaycan xalqının hüquqlarını bərpa etmək üçün beynəlxalq ictimaiyyətdən tələb etdiyi məqamlar isə çox konkretdi:1) Xocalı faciəsi Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı hadisəsi kimi qiymətləndirilsin və cinayətkarları öz cəzalarına çatsınlar. 2) Ermənistan Azərbaycan torpaqlarını işğal etməsi faktı bütün dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən tanınsın. Eləcə də BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələri icra olunsun. 3) Terrorçu, təcavüzkar və separatçı Ermənistana qarşı BMT, ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar tərəfindən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq sanksiyalar tətbiq edilsin. 4) Azərbaycanın ərazi bütövlüyünün pozulması hüquqlarının bərpa olunması üçün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində vasitəçilik missiyasını öz üzərinə götürmüş ATƏT –in Minisk qrupunun həmsədrləri artıq qəti, kəsərli addımlar atsınlar.



Azərbaycan Milli Kitabxanası

Bir daha qeyd edək ki, bu dörd tələb hər bir azərbaycanlının, ölkəmizin hər bir vətəndaşının tələbidir. Tam əminik ki, bu tələb ödəniləcək. Çünki Azərbaycan Prezidenti İlham Əliyev xalqın iradəsini ifadə edir, xalqımız isə prezidentin bütün addımlarını dəstəkləyir və alqışlayır. Bizim qəlbimizi məhz bu birlik təmin edəcəkdir.

*İttifaq Mizəbəyli,*
*«Xalq qəzeti»*





# XOCALIDAKI ERMƏNİ VƏHŞİLİYİ ƏCNƏBİ ŞAHİDLƏRİN DİLİ İLƏ

**...Xocalıda qadınları, uşaqları və qocaları güllələmişlər, meyitlərin başlarının dərisini soymuşlar, kəllə çanaqlarını əzmişlər. Hətta bu barədə azərbaycanlıların çəkdikləri kinosənədlər də deyilənləri təsdiq edir... Kamera qulağı kəsilmiş bir neçə uşağı çəkmişdir. Yaşlı bir qadının sol yanağı soyulmuşdu. Kişilərin başının dərisi soyulmuş, kəllə çanağı əzilmişdir. Meyitlərdə açıq-aşkar qarətçilik əlamətləri var. Cəsədlərin çoxu tanınmaz hala salınmışdır...**

**Xocalı soyqırımından sonra Rusiya Federasiyasının o vaxtı xarici işlər naziri Viktor Yerinin ölkə rəhbəri Boris Yeltsinə məktubundan.**

**Belə bir fikri tez-tez təkrarlayırıq ki, Xocalı soyqırımından dünya xəbər tutmadı, harayımızı kimsə eşitmədi, eşidən də qulaqardına vurdu. Doğurdanmı, belə oldu?**

Bu faktdır ki, ermənilər Xocalıda törətdikləri vəhşilikləri sonradan öz xeyirlərinə yönəltmək üçün əvvəlcədən lazım olan tədbirləri görmüşdülər. Ötən yazılarımızda da qeyd etmişik ki, bu qırğını, törədilən vəhşilikləri, qəddarlığı lentə almaq üçün dünyanın 32 ölkəsindən 47 jurnalist dəvət olunmuşdur. Sonradan bu lentlər dünyanın müxtəlif ölkələrində nümayiş etdirildi və şərh verilirdi ki, baxın, azərbaycanlılar «yazıq ermənilər»ə necə vəhşiliklə divan tutublar. Sonra bu təbliğat – erməni



Azərbaycan Milli Kitabxanası

təbliğatı daha da genişləndi və Azərbaycanın informasiya blokadası bir az da artdı.

Niyə biz bu soyqırımı vaxtında dünyaya lazımınca çatdıra bilmədik? Əvvəla, o zaman ölkə rəhbərlərinin yanlış, səbatsız xarici siyasəti nəticəsində dünyada Azərbaycanın dostları çox az idi. Üstəlik dünyada erməni diasporu çox güclü idi və onlar erməni təbliğatını kifayət qədər maliyyələşdirirdilər. Ancaq əldə olan məlumatlar göstərir ki, Xocalı soyqırımının elə sonrakı günləri, hətta Azərbaycan mətbuatının hələ susduğu günlərdə də dünya mətbuatı Xocalı faciəsi haqqında obyektiv məlumatlar verib. 1992-ci il fevralın son günləri, martın əvvəlləri Parisdə, Londonda Moskvada nəşr olunan qəzet və jurnallar Xocalıda erməni vəhşiliklərdən, Azərbaycanlıların xüsusi qəddarlıqla qətlə yetirilməsindən yazırdılar. **Məsələn, Parisdə nəşr olunan qəzetlərdən biri yazırdı: «Ağdamda olan xarici jurnalistlər Xocalıda öldürülmüş qadın və uşaqlar arasında skalpları götürülmüş, dırnaqları çıxarılmış adamları görmüşlər. Bu, azərbaycanlıların təbliğatı deyil, bu reallıqdı».**

Bu fakt deyilmi? Dünyanı erməni fəhşiliyindən xəbərdar edən, azərbaycanlıların müsübətlə üzləşməsini car çəkmək deyilmi? Bəs, Azərbaycan höküməti niyə bundan yararlanmadı.

**«...Xocalının girəcəyində bizə tərəf buluda bənzər nəyinsə hərəkət etdiyini gördüm. Bu bulud yarımçılpaq insanların toplusu idi. Azərbaycanlılardan ibarət bu dəstənin sonunda üç uşaqlı qadın gedirdi. O, qar üzərində ayaqyalın**





**çətinliklə irərləyir və tez-tez yıxılırdı. Sən demə, onun uşaqları biri iki günlük imiş. Digər yüzlərlə qaçqınlar kimi bu qadının və onun uşaqlarının sonrakı taleyini mən televiziya lentlərindən izlədim. Bu televizor lentlərindən səs zolağı operatorun hönkürtüsündən ibarət idi. Bu adamların cəsədləri eybəcərləşdirilmiş şəkildə qalmışdı».**

-Bu küncdə bucaqda deyilmiş sözlər deyildi. Bu müxbir Viktoria İvlevanın şahidi olduğu, ürək ağrısı ilə qələmə aldığı sözlərdi. Bəs, Azərbaycan höküməti niyə bunu bayraq edib, deyə bilmədi ki, buyurun, baxın, ermənilərin Xocalıda törətdiyi vəhşiliyi biz yox, Xocalıya göndərdiyin jurnalistlər, şahidlər deyirlər, yazırlar?

Leonid İvanoviç Kravtsev Xocalı faciəsi zamanı Əsgərandakı vertalyot eksadriliyasının komandiri imiş. Gördüyü vəhşiliklərdən dəhşətə gələn bu təcrübəli hərbçi sarsılır, haray salır. Hətta Azərbaycan respublikasının Ali Sovetinə də həyacanlı bir məktub (1992-ci il martın 18-də) göndərir: «...Deputatlar!.. **Mən özüm təpənin ətəyində, silahlı şəxslərin əhatəsində iki yüzə yaxın cəsəd gördüm.. Biz cəsədləri yığmağa çalışdıq. Mən dörd yaşlı oğlan uşağının dağıdılmış kəlləsini görəndə dəhşətə gəldim. Silahların bizi atəşə tutmamışdan qabaq imkan tapıb götürə bildiyimiz uşağın isə başı bədənindən ayrılmışdı. Eybəcər hala salınmış qadın, qoca və uşaq meyitləri hər tərəfə səpələnmişdi. Sizə müraciət etmək istəyirəm. Oyanın! Öz xalqınıza kömək edin!...»** - Bu, vəhşilikdən havalanmış, vicdanla haray salmış bir insanın hayqırtısı idi. Bəs,



Azərbaycan Milli Kitabxanası

Azərbaycan deputatları niyə eşitmirdilər bu harayı?..

Bu yerdə Dağlıq Qarabağda yerləşən 02270 nömrəli hərbi hissənini əks-kəşfiyyat şöbəsinin rəisi V. Savelyevin o vaxt Bakıya, Moskvaya, Avropa Şurasına, BMT-yə ünvanladığı məktubunu yada salmaq istəyirik. Rus zabiti, özü də hərbi hissəsinin əks-kəşfiyyat şöbəsinin rəisi təsdiq edirdi ki, ermənilər 366-cı Sovet motoatıcı alayının köməyi ilə Xocalıda vəhşiliklər törədiblər. Ancaq onun göndərdiyi məktubda ermənipərəst qüvvələr kimi, Azərbaycanın əlaqədar təşkilatları ya susublar, ya da qəribə cavablar veriblər. Azərbaycan rəhbərlərinin öz xalqının müsübətlərinə bu cür biganəliyi V.Savelyevi dəhşətə gətirib: **«Öldürülmüş, məhv edilmiş adamların bir qisminin şəxsiyyətini təsdiq edən sənədlərdən 46-sını nömrələyib Müdafiə Nazirliyinə, Prezident Aparatına (Azərbaycanı nəzərdə tutur - V.İ.) göndərdim. Mənə cavab gəldi ki, biz həmin sənədləri araşdırırıq. Onda mən Tbilisidə idim və məktubu da ordan yola salmışdım, amma dərk edə bilmirdim ki, Azərbaycan əks-kəşfiyyatı nəyi araşdırır?»**

V.Savelyevin bu sualı düz 13 ildir ki, cavabsızdır.

V. Savelyevin Azərbaycana göndərdiyi məktub və sənədlərə qəribə münasibətdən sonra respublikadakı vəziyyətin çox real təhlilini verir: «... **Mən Bakıdakı hadisələri izləyirdim. Hiss olunurdu ki, hər şeyin kələfi dolaşıb. Prezident Xocalıda nələr baş verdiyini dərk etmirdi».**

Doğrudan da, belə idi. Fevralın 26-da Rəhim Qazıyev Şuşadan xəbər vermişdi ki, Xocalıya hücüm





edən erməni silahlarının qarşısı alınıb. Düşmən xeyli canlı qüvvə itirib, geri çəkilibdir. Xocalıda bir nəfər şəhid olub, iki nəfər yaralanıb.

Ölkə başçısı Ayaz Mütəllibov isə xocalıların naləsinə qulağını tıxayıb, bu məlumata «inanmışdı». Dəhşətli faktlar qarşısında qalanda isə qəribə, məntiqsiz və şərəfsiz bir cavab vermişdi: «Mən Ermənistanın rəhbəri ilə bir neçə dəfə əlaqə saxlamışam. Onlar deyirlər ki, Qaraqaya İstiqamətində yol açıqdı. Adamlarınız oradan salamat keçib gediblər». Təbii ki, A. Mütəllibov Qaraqayanın harada yerləşdiyini bilmirdi, amma Ermənistan rəhbərliyi bilirmiş. Doğrudan da, belə bir yer var. Artıq 5 ay tam mühasirədə qalan Xocalı ilə əlaqələr bu istiqamətdən mümkün olurdu. Oraya isə faciəyə qədər Xalq Cəbhəsinin döyüşçüləri nəzarət edirdilər. Fevralın 25-də həmin post müəmmalı şəkildə nəzarətsiz buraxıldı və ermənilərin nəzarətinə verildi. (V.İ.).

**«Azərbaycan Ordusunun Baş Qərargahında hamı özünü qərargah rəisi kimi aparırdı. Dördüncü ümumordu qoşun birləşmələrində isə gərginlik artırdı. Bu qoşun birləşmələrində hər şey Azərbaycanın əleyhinə idi. Azərbaycandakı hərbi əks-kəşviyyata gəlincə, belə bir qurum iflic olmuşdu. Vəziyyət nəzarətdən çıxmışdı. Zabitlər başlarını itirmişdilər... Məlumat aldıq ki, Azərbayan Prezident Aparatında və güc nazirliklərində ikitirəlik var. Məqsəd və fikirlər bir-birini tamamlamırdı. Hamı siyasi məqsədləri üçün «müharibə kartı»ndan yapışmışdı. Bu kartı paylayanlara gəlincə, onların bir qismi Ali**

**Baş Komandanın, bir qismi də müxalifətin və nəyə xidmət etdiyini anlamayan savadsız və küt generalların yanını kəsdirmişdilər».**

V. Savelyevin bu cür real təhlil və qiymətləndirilməsindən sonra A. Mütəllibov və R.Qazıyevin şərəfsiz çıxışına cavab kimi Yuri Pompeyevin **«Qarabağ qan girdabında»** kitabında yazdığı kimi, onu deyə bilərik: **« Xocalıda yalnız ölülər qaldı.»**





## İNSANLIĞIN DÜŞMƏNİ

**Şərqin böyük təfəkkür sahibi Sədi Şiraziyə məxsus fikirdir**

***Ermənidir yer üzünün Əhriməni,***
***İnsanlığın düşmənidir, düşməni.***

**"Əhrimən" sözünün mənası şər və zillət mənbəyi deməkdir. Millətimizin taleyinə yazılan amansızlığın bəlkə də ən birincisi onun ermənilərlə qonşuluqda yaşaması, öz ərazisində, öz halal torpağında bu namərdlərə yer verməsidir. Məşhur tarixçi V.L.Veliçko yazırdı: "Ermənilər haqqında çox-çox qədimlərdən pis bir fikir yaranıb və şübhəsiz ki, bu əsassız deyildir. Ona görə ki, əsası olmasaydı bütöv bir xalq haqqında həm də müxtəlif dövrlərdə belə bir fikir yarana bilməzdi". Məhz belə bir mənfur təbiətə malik olan ermənilər həmişə xalqımıza, millətimizə qarşı müxtəlif soyqırımlar, terror aktları, repressiyalar həyata keçiriblər. Böyük rus şairi Puşkinin "Sən qorxaq, sən kölə, sən ermənisən" sözləri isə illərdir ki, sülhsevər insanların dilinin əzbəridir. Ermənilərin alçaqlığı, vəhşiliyi, namərdliyi haqqında dünyanın çox məşhur insanları öz fikirlərini bildiriblər. "Qobusnamə"də (1082-1083-cü illərdə yazılıb) oxuyuruq: "Erməni bədfel, kündə bədən, oğru, gözügötürməyən, bir ayağı qaçmaqda olan, əmrə baxmayan, yersiz hay-küy salan, vəfasız, ziyankar, söyüşsoyən, ürəyi kinli, ağasına düşmənçidir".**



Azərbaycan Milli Kitabxanası

Belə bir mənfi xüsusiyyətlərə malik olan etnik qrup zaman-zaman millətimizə qarşı müxtəlif bəd əməlli niyyətlər və xəyanətlər həyata keçiriblər. 1813-1828-ci ilə qədər 410 min kvadratkilometr sahəsi olan Azərbaycan torpağı 86,4 min kvadratkilometr qalana qədər erməni təcavüzkarları və onlann tərəfdarları tərəfindən ya parçalanmışdır, ya da işğal edilmişdir. 1905-1918-ci illər arasında ermənilər yarım milyon azərbaycanlını qətlə yetirmişlər. 1918-ci ildə təkcə Zəngəzurda 115 azərbaycanlı kəndi tamamilə yer üzündən silinmişdir.

Bu namərd millət ömrü boyu vəhşiliklə məşğul olub. Onları xalq, millət adlandırmağın özü bir yanlışlıqdır. Ermənilərin içindən çıxan "ziyalılann, yazıçıların" da arasında insanlığa yaxın olanı demək olar ki, azdır, bəlkə də yoxdur. Məşhur şairləri Silva Kaputikyan ömrü boyu erməni analarını məcbur edirdi ki, siz hər dəfə öz balalarınıza süd verəndə mütləq onların qulağına pıçıldamalısınız: "Türk sənin düşmənindir. Böyüyəndə qisas almalısan, öldürməlisən, qəsd etməlisən, "Böyük Ermənistan" yaratmaq üçün türkü son nəfərinə qədər qırmalısan. Bütün torpaq bizimdir". İnsan adlandırılmağa heç bir məziyyəti olmayan Zori Balayan isə əlinə qələm alan gündən Azərbaycan xalqının ünvanına ağzına gələn hədyanları, söyüşləri yazmaqla məşğuldu. Hələ sovet dövründə Irəvanda erməni, Moskvada rus dillərində çap etdirdiyi "Ocaq" kitabında erməniləri dəhşətə, cinayətə, işğalçılığa çağıraraq onların qeyri-insani hərəkətlərə təhrik edirdi. Zori Balayan o kəslərdəndir ki, sinəsində ürək, üzündə





abır-həya, sözlərində həqiqət yoxdur. Belələrini Allah yox, iblis yaradıb. Və bu iblis xislətlilərin qanında ancaq insanlara pislik və nifrət dolaşmaqdadır. Zori Balayan kimilərini xalqımız yetərincə tanıyır. Yadımdadır ki, 2001-ci ilin 9 yanvarında Rusiya Prezidenti Vladimir Putin Azərbaycana gələndə Şəhidlər Xiyabanını ziyarət etmişdi. On bir gün sonra isə "Nezavisimaya qazeta"da "Molçaniye opasno" adlı yazısı çap edilmişdir. Həmin vaxt öz hiddət və qəzəbini çox kobud sözlərlə ifadə edən Zori Balayan V.Putini ittiham edirdi və heç vəchlə razılaşa bilmirdi ki, Rusiya Prezidenti nəyə görə Şəhidlər Xiyabanında ehtiramla baş əyib. Təəssüf ki, o vaxt bu hadisəyə münasibət respublika səviyyəsində adi şərhlərlə ötüşdü. Halbuki ən azı rus mətbuatı ilə əməkdaşlıq edən jurnalistlərimiz bu hadisəyə öz sərt mövqelərini bildirməli idilər. Yenidən Zori Balayanı "yad" etməyimizə səbəb bu yaxınlarda internetdə oxuduğumuz tükürpədici məlumatlar oldu. Zori Balayan 1996-cı ildə "Ruhumuzun canlanması" adlı bir kitab yazıb. Oradakı bir məlumatı olduğu kimi qələmə alırıq. (Bəri başdan ürəyi zəif olanların bu yazını oxumamasını məsləhət görürük. Çünki insan adlanan varlıq bu vəhşiliyə necə tab gətirə bilər?! F.X.) Türkün qatı düşməni Zori Balayan yazır: "13 yaşındakı türk uşağının (bu uşaq Xocalı soyqırımı vaxtı ermənilər tərəfindən girov götürülmüşdür F.X.) başından, sinəsindən və qarnından dərisini soydum.

Öna görə də türk uşağına etdiyim bu əməllərə görə də özümü xoşbəxt saymadım. Amma ruhum

xalqımın bir faizinin belə qisasını aldığı üçün sevincimdən qürurlanırdım. Dostum Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və onu türklə eyni kökdən olan itlərə atdı". Belə bir mənzərəni təsəvvür etmək çətindir. Heç faşistlərdən üzü bəri yer üzü bu cür vəhşilik görməyib. Zori Balayanın bu qara etirafını başqaları eşitmirmi? Interpol axtarışında olan bir caninin tutulması nə qədər çətinmiş? Beynəlxalq təşkilatlar bəzən elə qəddarlığa göz yumub, elə adiliklərə dəhşət donu biçir ki, qalırsan məəttəl. Azərbaycan bayrağını təhqir etdiyinə, millətinə söydüyünə, doğma yurdunu işğal etdiyinə, valideynlərini, qohuməqrabasını qaçqına döndərdiyinə, daha hansı sitəmlərə və xəyanətlərə görə dərindən sarsıntı keçirərək əsəbləşib normal vəziyyətdə olmadığına görə bir erməni dığasma qəsd edən Ramil Səfərovun (hərçəndi, biz buna da haqq qazandırmırıq F.X.) hərəkətləri ağırdır, yoxsa yazıçı Zori Balayanın günahsız körpələri diri-diri soyaraq qətlə yetirməsi, itlərə yedirtməsi? Eləcə də üçyaşlı körpənin ürəyini çıxararaq boynuna asan və bütün bu vəhşiliyi ananın gözləri qarşısında yerinə yetirən zori balayanlara canavar, ayı, vəhşi belə demək olmur. Çünki təbiətdə eyni cinsli heyvanlar da bir-biri ilə bu cür qəddar davranmırlar. Hətta, ən vəhşi heyvanın qarşısına insan cocuğu çıxanda ona toxunmur. Əksinə, aparıb öz balaları ilə birlikdə böyüdür. Bu faktlarla bağlı nə qədər sənədli filmlər çəkilib, əsərlər yazılıb.

26 fevral 1992-ci il Xocalı fəlakəti məhz zori balayanların illər boyu təbliğatı nəticəsində türk





millətinə qarşı yeridilən soyqırımı siyasətinin tərkib hissəsidir. Bu faciə zamanı şəhid olmuş, əsir və girov düşmüş, qətlə yetirilmiş insanların rəqəmlə ifadə olunmuş siyahısına baxanda adamın varlığından gizilti keçir. Lentə köçürülmüş məqamları sadəcə seyr etmək də mümkün deyildir. Çünki tükürpədici mənzərələr adamın varlığına vahimə gətirir. Insan adlanan bəşər övladı bu qəddarlığı necə bacarır?

Gözəl Qarabağımızın dilbər guşələrindən olan Xocalı ötən əsrin əvvəllərində də dəfələrlə erməni daşnaqları tərəfindən yandırılıb, viran edilib. Xocalı 1905, 1918-ci illərdə ermənilər tərəfindən tarmar olunub. Amma həmişə də xocalılar ara Sakitləşən kimi doğma yurda qayıdıb. Xocalını bərpa edərək yenidən yasamağa başlayıblar.

Burada ulu keçmişimizin yadigar olan müxtəlif kurqanlar var idi. Tədqiqatçıların apardığı araşdırmalar nəticəsində məlum olmuşdur ki, Xocalı çox qədimdən əcdadlarımızın vətəni olub.

Təəssüf ki, sonuncu soyqırımın nəticələri daha ağlagəlməz, daha acınacaqlı idi. 15 ildir ki, biz bu fəlakətin ağrı - acıları ilə nəfəs alır, onun başvermə səbəblərini araşdırır, müəmmalar qarşısında çırpınır, bir çox sualların cavabını axtarırıq. Bu fəlakət baş verməyə bilərdimi?

Bəllidir ki, ermənilər bütün zamanlarda millətimizə diş qıcırdanda başıbəlalı Xocalı coğrafi mövqeyinə görə əsas hədəflərdən birinə çevrilib. 1988-ci ildə ermənilərin qopardığı torpaq davalı tufan,Xocalının da başı üstündə bir fəlakət topasına dönmüşdü. Amma bir çox qəsdlər kimi ermənilər bunu da törətməyə dərhal cəsarət edə bilmədilər.



Azərbaycan Milli Kitabxanası

Birinci ona görə ki, Xocalı xocalılar tərəfindən inamla qorunurdu. İkinci də daşnaqlar içimizdəki satqınların sifətlərinə hələ tam bələd deyildilər. Bu o zamanlar idi ki, yerli əhallni silahlandırmaq əvəzinə əlindəki, ovcundakı ov tüfənglərini də alırdılar. Xocalıya qədər ermənilər millətimizin gözünü qorxutmaq üçün bir sıra ağır əməliyyatlar həyata keçirdilər. Məsələn, 1988-ci ilin fevralında ermənilərin indi dillərinin əzbəri olan Sumqayıt hadisələrini törətdilər. 1988-ci ilin payızında Qərbi Azərbaycandan üç yüz minə yaxın soydaşımızı min bir işgəncə ilə qovdular. Respublikamızın o vaxtkı rəhbərliyi, başda Vəzirov olmaqla bu binəsib insanlara qarşı son dərəcə biganə və soyuq münasibət göstərdilər. Dağ şəraitində yaşamağa öyrəşmiş əhaliyə Dağlıq Qarabağda məskunlaşmağa imkan vermədilər. Oraya üz tutanları o vaxtkı respublika rəhbərləri Dağlıq Qarabağdan çıxardılar.

1990-cı ilin yanvarında sovet ordusunun köməyi ilə Bakıda faciə törədildi. Dinc əhali qətlə yetirildi, paytaxtımız gülləbaran edildi. Vəzirov milləti qan içində qoyub qaçdı. Nazirlər Sovetinin sədri Ayaz Mütəllibov tökülən qanları ayaqlayaraq Moskvaya getdi. Qayıdanda da heç nə olmayıbmış kimi həsrətini çəkdiyi kresloda əyləşdi. Belə manqurtlaşmış insanların ölkəyə rəhbəriik etməsi əsil faciə idi. Onların yadına millət, Vətən düşmürdü. Maraq ancaq bir istiqamətə yönəlmişdi: Ancaq və ancaq ətrafları, can atdıqları hakimiyyət, kreslo marağı idi. Azərbaycan torpaqları isə ermənilər tərəfindən kənd-kənd, rayon-rayon işğal edilirdi. Ölkə rəhbərləri isə heç nədən "xəbərdar"





deyildilər. "Bizim bu yerdə yadımıza bir müdrik əhvalat düşür. Bir kişi Əzraillə dostluq edirmiş. Bir gün ondan xahiş edir ki, bilirəm nə vaxtsa canımı alacaqsan, amma məni qabaqcadan xəbərdar et, sonra. Əzrail də ona söz verir. Vaxt ötür, əvvəlcə bir qonşu, sonra o biri qonşu rəhmətə gedir. Qəfildən Əzrail kişinin başının üstünü kəsdirir: "canını almağa gəlmişəm". "Bəs niyə məni xəbərdar etmədin?" - deyə kişi gileylə soruşur. Əzrail gülür: "nə qəribə adamsan, yan-yörəndəki qonşularının hamısını aparmışam, bəs bunlar xəbərdarlıq deyildi?!"

Niyə xatırlatdıq, bu ibrət götürülməli rəvayəti? Xocıladan öncə, məhz fevral ayında onun ətrafında olan kəndlər ermənilər tərəfindən dağıdılır, yandırılır, külü göyə sovrulurdu. Cəmilli, Meşəli, Quşçular, Qaradağlı... kimi kəndlər yandırıldı. Əhalisi qətlə yetirildi, insanlann naləsi ərşə bülənd oldu. O zaman bu bölgədə olan jumalistlər yazırdılar, qəzetlərə informasiyalar ötürürdülər: Xocalı təhlükə qarşısındadır. Bu şəhərin uzun sürən mühasirəsi, yolların bağlanması niyə bir kimsəni ayıltmır? Niyə ölkə rəhbəri bu şəhərin müdafıəsini təşkil etmədi? Niyə insanların harayı eşidilməz oldu? Bax bu sualların cavabları indi yox, o zaman əməli şəkildə həyata keçirilməli idi. Əlbəttə, onda Xocalı soyqırımı baş verməyə bilərdi. Təəssüf ki, Xocalı soyqırımının dəhşətlə həyata keçirilməsinə rəhbər vəzifədə olanların biganəliyi və xəyanəti də yol açdı.

Başqa bir fakt. Faciədən xeyli əvvəl Azərbaycan televiziyasının müxbiri Qulu Məhərrəmli Xocalıda olarkən Milli Ordunun burada yerləşdirilmiş 15-20



Azərbaycan Milli Kitabxanası

nəfərinin komandiri, baş leytenant Aqil Quliyevlə görüşüb. Aqil Quliyev cəbhədə baş verən uğursuzluqlann səbəblərindən danışaraq respublika Prezidenti Ayaz Mütəllibovun göstərdiyi laqeyd münasibətə öz hiddətini bildirib. "Əgər tezliklə əncam çəkilməsə, baş verə biləcək fəlakətin miqyasını sözlə ifadə etmək çətin olacaq" deyib. Təəssüf ki, o zaman teleşirkətin rəhbərliyində əyləşənlər də Ayaz Mütəllibova xidmət göstərən dinsiz, imansız, duyğusuz qullar idi. Onlar həmin çıxışın ekranda göstərilməsinə icazə verməyiblər. Faciə baş verəndən iki il sonra biz ilk dəfə o kadrı ekranda gördük. Artıq nə Xocalı var idi, nə də ki, Ayaz Mütəllibov Azərbaycanda idi. Bu haqlı ittihamların, xəbərdarlıqların sahibi Aqil Quliyev də Xocalıda qəhrəmancasına həlak olmuşdu. Cəbhədə göstərdiyi qeyri-adi igidliyə görə Aqil Quliyev ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü. İndi Şəhidlər Xiyabanında uyuyan Əlif Hacıyev, Tofıq Hüseynov, Inqilab Ismayılov, Hikmət Nəzərli Aqil Quliyev kimi Vətən qarşısında öz borclarını ləyaqətlə yerinə yetirərək Xocalı uğrunda həlak olmuşlar. Onlar da məhz ölümlərindən sonra Azərbaycanın Milli Qəhrəmanı adını qazanmışlar. Dəhşətlisi budur ki, sovet ordusunun 366-cı motoatıcı alayının köməyi ilə ermənilər Xocalıya basqın edərək bir gecədə yüzlərlə insanı vəhşiliklə qətlə yetirdilər.

Qarabağın aran elləri Ağdamdan keçərək hər yay Xocalıya, Şuşaya, Laçına, Zəngəzura üz tutardılar. İndi Şuşada ermənilər yaşayır. Zəngəzur dustaq olub. Xocalı bayquşlar yuvasına çevriib. Minillik





qədim yaşayış yerlərimiz erməni tapdağı altında əzab çəkir. Əlbəttə, bu yaraların qaysaq tutacağına, nə vaxtsa sağalacağına inanırıq. Amma adamı dəhşətə gətirən odur ki, bizi doğrayan, bizi kəsən bu baltaların sapı bizim meşələrin ağaclarından hazırlanıb. Ermənilərin qol açıb oynamaları üçün bu havanı çalanlar arasında özümüzünkülər də var idi. Bu soyqırımın sürətlə qanad açmasına o zaman dövlətin başında dayanan bəzi qafası boşların əməlləri, xəyanətləri də rəvac verdi. Hərdən də ilin, günün bu vədəsində üzü Ermənistana sarı gedərək Dilicanda ermənilərlə birgə rəqs edib, çörək kəsən, Azərbaycan plovu dadan bəzi "hüquq müdafiə"çilərinin "Biz ermənilərlə yeni dostluq ənənəsinin təməlini qoyuruq" söyləməsi acı təəssüf doğurur. Zori Balayanın "uf' demədən dərisini soyduğu 13 yaşlı uşağın harayı ürəkləri deşir. Isveçrənin məşhur şərqşünas alimi Adam Mesinin "Müsəlman intibahı" kitabında yazdığı sözlər yada düşür: "Ağ qulların ən pisi ermənidir... Əgər erməni qulunu bircə saat işsiz qoysan, onun xasiyyəti həmin anda ziyankarlığa, pisliyə sövq edəcəkdir". Dünyanın müdrikləri sınaqlardan çıxmış hadisələrə, olmuşlara, olaylara söykənərək ermənilər haqqında belə dəqiq və sərrast söz deyiblər ki, bəşəriyyət ayılsın, birdəfəlik bilsin: erməni insanlığın düşmənidir!

*Flora XƏLİLZADƏ,*
*"Azərbaycan"*

# DÜNYA MƏTBUATI VƏ XOCALI SOYQIRIMI

Xocalı soyqırımını törətmiş ermənilər və onların köməkçiləri həmçinin insan haqlarına qarşı böyük cinayət etmişlər. Onların bu cinayətləri beynəlxalq müqavilələrə - Cenevrə Anlaşmasına, İnsan haqları Bəyannaməsinə, Vətəndaş və siyasi haqlar üzrə beynəlxalq müqavilələrə, Atəşkəs zamanında və hərbi münaqişələr zamanı qadınların və uşaqların qorunması Bəyannaməsinə ziddir.

Ermənilər iddia edirlər ki, Xocalıdan əhalinin çıxması üçün *XocalıAğdam təhlükəsizlik koridoru* təşkil edilmiş və bu haqda mühasirədə olan əhaliyə xəbər verilmişdi. Əslində isə Xocalı əhalisinin təhlükəsiz koridor haqqında heç bir məlumatı olmamışdır. "Memorial" təşkilatının müşahidəçiləri Xocalıya hücum zamanı şəhəri tərk etmiş 60 nəfərdən Xocalı-Ağdam koridoru ilə əlaqədar sorğu keçirmişdir. Soruşulan insanlardan yalnız biri koridor haqqında məlumatı olduğunu bildirmişdir. Lakin həqiqətdə koridor olmamış, ermənilərin koridor adlandırdıqları yolda da Xocalı qaçqınlarını atəşə tutaraq öldürmüşlər. Sonradan erməni tərəfi etiraf etmişdir ki, onların əsas hədəfi Xocalı bölgəsini yox etmək yox, Əsgəran-Xankəndi yolunu boşaltmaq, azərbaycanlıların idarəsində olan hava limanını ələ keçirmək idi. Deməli, "Xocalı bölgəsinin yox edilməsi" faktının mövcudluğu





ermənilərin bu soyqırımı törətmələrinin dolayı yolla etirafıdır.

Beləliklə, artıq 15-ci ildir ki, Azərbaycanın dilbər guşəsində yerləşmiş olan Xocalı şəhəri əhalisi ilə birlikdə yer üzündən silinmişdir. "Sandy Times" qəzetinin əməkdaşı Tomas Tolts ermənilərin həyata keçirdikləri qətliam haqqında məlumat verən ilk repartyordur. "Xocalı yalnız azərbaycanlıların yaşadığı şəhər olmuşdur. Sülh vaxtında kənd təsərrüfatı ilə məşğul olan minlərlə azərbaycanlının şəhərdə evi var idi. Keçən həftə yer üzündən silinmişdir".

Bununla belə, çox halda Xocalı soyqırımı haqqında yazmadığına görə dünya mətbuatını günahlandırırıq. Amma bunun günahı, ilk növbədə mətbuat nümayəndələrində yox, siyasilərdədir. Dünya mətbuatı isə əslində Xocalı soyqırımı haqqında heç də az yazmamışdır. Əsas məsələ bu yazıları cəmləyib, yüksək instansiyalara təqdim etmək və faciənin soyqırımı kimi qəbul edilməsinə nail olmaqdır. Dünya tarixi də sübut edir ki, hər hansı hadisənin dünyaya təqdim edilməsinin birinci mərhələsi onun tanıdılmasından başlayır.

Düzdür, soyqırımının ilk günlərində ermənilər hadisə haqqında məlumatın dünyaya yayılmasının qarşısını almağa, cinayətlərinin izlərini örtbasdır etməyə çalışmışlar. Lakin onların bu cəhdlərinə baxmayaraq, artıq martın 2-də Xocalının səsi dünyanın hər yerindən eşidilməyə başladı, Xocalıda Azərbaycan türklərinin başına gələnləri yazıb



Azərbaycan Milli Kitabxanası

dünyaya anlatmaq istəyən xarici müxbirlər hadisə yerinə gəldilər. Onlar qar üstündə səssizcə "yatan" cəsədləri, qan qoxuyan ərazini lentlərə köçürdülər, qeydlərini apardılar. Çox maraqlıdır ki, Xocalı soyqırımını qələmə alan və şəkillərini çəkən ilk xarici jurnalistlərdən biri Fransanın müxbiri Janiv Yunet oldu. Janiv Yunet gördüyü dəhşəti bu sətirlərlə dünyaya bəyan etdi: ***"Biz Xocalı faciəsinə şahid olduq. Yüzlərcə cəsəd gördük. Bunların içində qadınlar, qocalar, uşaqlar və şəhərin müdafiəçiləri var idi. Sərəncamımıza vertolyot verilmişdir. Göydən gördüklərimizi kamera ilə çəkirdik. 0 zaman ermənilər vertolyota atəş açdılar, biz çəkilişi yarımçıq buraxaraq, geri qayıtmaq məcburiyyətində qaldıq. Mən müharibə haqqında çox şey eşitmişdim.»***

"İzvestiya" qəzetinin müxbiri V.Bellax isə Xocalıda başları kəsilmiş insan cəsədləri barədə belə yazırdı: ***"Tez-tez Ağdama cəsədlər gətirilirdi. Tarixdə belə şeylər görünməmişdir. Cəsədlərin gözləri çıxarılmış, qulaqları və başları kəsilmişdir. Bir çox cəsədi tanklarla sürüdükləri də bəlli olurdu. Cəsədlər üzərində işgəncələrin həddi, hesabı yox idi".*** "Finansial Times" qəzeti də Xocalı qətliamı haqqında yazmışdır. ***"Ermənilər Ağdama gedən qaçqınları atəşə tutdular. Azərbaycanlılar gəldikdə 1200 cəsəd saydılar. Livandan gələn reportyor, zəngin ermənilərin Qarabağa silah və könüllü göndərdiklərini təsdiq edib.*** Ermənilərin qətlə yetirdikləri azərbaycanlılar haqqında "İzvestiya" qəzeti şahidlərin də məlumatını dərc etmişdir:





***"Mayor Lenold Kravest yamacda 100,-ə yaxın cəsəd görmüşdür. Oğlan uşaqlarından birinin başı yox idi. Hər yerdə xüsusi qəddarlıqla öldürülmüş yaşlı qadın və uşaqların cəsədləri var idi".*** Burada bir məqamı da qeyd etmək yerinə düşər. Məlumdur ki, ermənilər Xocalı soyqırımı ilə əlaqədar cavabdehlikdən imtina etmək üçün hətta hadisənin guya azərbaycanlılar tərəfindən törədildiyini, dünya mətbuatında işıqlandırmağa çalışırdılar. Lakin hadisə o qədər dəhşətli idi ki, erməni jurnalisti belə faciənin gizlədilməsinin mümkün olmadığını başa düşmüşdür. Erməni mənşəli avropalı jumalist ermənilərin Xocalıda həyata keçirdikləri soyqırım haqqında hadisənin ilk günlərində yazırdı: ***"Ermənilər Xocalıda qətl etdikləri 100 nəfəri yan - yana düzərək körpü qurdular. Mən bu körpüdən cəsədlərin üzərindən keçərkən ayağımı körpə bir uşağın sinəsinə basanda elə titrədim ki, fotoaparatım, bloknotum, qələmim yerə düşərək qana bulaşdı. Özümü tamam itirdim, bədənim titrədi".*** Xocalı qırğınını görmüş beyrutlu erməni qəzetçisi Davud Keyriyan isə "For the Sake of Gross" adlı kitabında bu vəhşiliyi aşağıdakı kimi yazmışdır: ***"Ölülərin yandırılması tapşırılmış "Kaplan" adlı erməni qrupu Xocalının 1 km qərbindəki bir yerə martın 2-də 100 azərbaycanlı cəsədini gətirib yığdı. Son yük maşınında 10 yaşında bir qız uşağını gördüm. Başından və əlindən yaralı idi».***

Hadisədən sonra Amerika mətbuatında da Xocalı soyqırımı haqqında yazılar obyektiv dərc



Azərbaycan Milli Kitabxanası

olunmuşdur. "Vaşinqton Postun müxbiri yazırdı: ***"Dağlıq Qarabağ qurbanları Azərbaycanda torpağa verildilər. Qaçaraq canını qurtaranlar ermənilərin Xocalıya hücumunda yüzlərlə insanın öldüyünü söyləyirlər. 7 adamın cəsədi bu gün göstərildi. Onların ikisi uşaq, uçü qadındır. 120 qaçqın Ağdam xəstəxanasındadır, vücudlarında çox dərin yaralar vardır".*** "Le Monde" isə ermənilərin cəsədlər üzərində qəddarlıqlar etdiyini oxucularına çatdırırdı: ***"Agdamda olan xarici qəzetçilər Xocalıda öldürülmüş qadın və uşaqlar arasında 3 nəfərin başının dərisinin soyulduğunu, dırnaqlarının çıxarıldığını görmüşdülər. Bu, Azərbaycan təbliğatı deyil, həqiqətdir".*** "The Times"in məlumatı da tükürpədicidir: ***"Ermənilər yuzlərlə qaçqın ailəsini qətlə yetirdilər. 450-dən çox azərbaycanlının öldürüldüyünü və onların çoxunun qadın və uşaq olduğunu məlumat verirdilər. Yüzlərlə, hətta minlərlə Xocalı sakini itkin düşmüşdür".*** "The Times" başqa məlumatlarında da Xocalıda ermənilərin törətdikləri soyqırım haqqında yeni-yeni faktları bildirirdi: ***"Qətliam məlum olmuşdur. Dağlıq Qarabağın yamaclarında qadın və uşaqlardan ibarət olan 60-dan artıq cəsəd tapılmışdır. Bu isə ermənilərin azərbaycanlı qaçqınları qətlə yetirdikləri haqqındakı xəbərlərin doğru olduğunu göstərir. Hələ itkin düşmüş yüzlərlə qaçqın vardır". «The times» daha sonra qeyd edirdi: "Meyitlərin çoxu tanınmaz hala gətirilmişdir. Yalnız kiçik bir uşaq qalmışdır".***





Birləşmiş Millətlər Təşkilatı 1948-ci il dekabrın 9-da «Soyqırımının tanınması haqqında» Bəyannamə qəbul etmişdir. Bəyannamənin 2-ci maddəsində yazılır: ***"Milli, etnik, irqi və dini bir qrupu qismən və ya tamam qətlə yetirmək soyqırımı adlandırılır".*** Bəyannamənin bu tələbi kifayətdir ki, Xocalı faciəsi soyqırımı adlandırılsın və ona siyasi qiymət verilsin. Bundan başqa, Xocalı qətliamına II Dünya müharibəsindən sonra keçirilən Nürenberq Məhkəməsində qəbul edilən Beynəlxalq Hüquq Əsaslarının 6-cı bəndinə görə də qiymət vermək mümkündür.



Azərbaycan Milli Kitabxanası

## BƏŞƏRİYYƏTƏ VƏ İNSANLIĞA QARŞI YÖNƏLMİŞ CİNAYƏT

**1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda yaşanan dəhşətli faciədən 14 il ötür. Erməni faşizminin mənfur xislətini tamamilə ifşa edən bu kütləvi və amansız soyqırım aktı Azərbaycanın dövlət müstəqilliyinə və ərazi bütövlüyünə qarşı çevrilmiş terror siyasətinin təzahürü olmaqla bütövlükdə bəşəriyyətə və insanlıq əleyhinə törədilmiş qəddar cinayətdir. Beynəlxalq hüquq norma və prinsiplərinə məhəl qoymayan azğınlaşmış erməni silahlı birləşmələri Xocalıda bu soyqırımı törədərkən doğma torpağını qəsbkarlara vermək istəməyən Azərbaycan xalqının mübarizə əzmini qırmaq və məhv etmək niyyətini güdmüşlər.**

Erməni terrorizminin qanlı fəsadları təkcə böyük türk dünyasının deyil, bütün bəşəriyyətin başı üstünü qara kabus kimi bürüməklə insanlığa qarşı yönəlmiş ən amansız, dəhşətli cinayətlərə rəvac vermiş, əsrlər boyu bu vandalizmin qurbanı olmuş Azərbaycan xalqının şüurunda dərin izlər buraxmışdır. Tarixi həqiqətlər göstərir ki, "Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilər öz əsassız və qeyri-hüquqi iddialarını reallaşdırmaq naminə terror və soyqırım siyasətini "milli mübarizə" yoluna çevirərək dövlət səviyyəsində dəstəkləmişlər. Bu baxımdan 1992-ci ilin 26 fevralında Xocalıda törədilən qətliam heç də birinci deyildir - mənfur ermənilər hələ 1906 və 1918-ci illərdə bu şəhəri iki dəfə yandırıb külə çevirmiş, əhalisini məhv etmişlər. Fəqət 1992-ci ildə Xocalıda miqyasına və qəddarlığına görə bəşər





tarixində misli görünməmiş daha bir soyqırım aktı yaşandı. Ermənistan silahlı birləşmələri, Dağlıq Qarabağdakı erməni yaraqlıları, habelə uzun illər beynəlxalq ictimaiyyətə "sülhsevər" ordu kimi təqdim edilmiş keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı Xocalı şəhərini sakinləri ilə birlikdə tamamilə məhv edərək insanlığa silinməz ləkə olan soyqırım aktını törətmişlər. Cəmi bir neçə saat ərzində 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca dözülməz işgəncələr verilməklə öldürülmüş, 487 nəfərə ağır xəsarət yetirilmiş, 1275 sakin - köməksiz qocalar, uşaqlar, qadınlar girov götürülərək zülm, təhqir və həqarətə məruz qoyulmuşlar. Erməni qəsbkarları azərbaycanlıları qətlə yetirmək üçün hətta hitlerçi faşistlərin belə sınaqdan keçirmədikləri ən qəddar, tükürpədici üsullardan istifadə etmişlər.

Xocalı qətliamı Ermənistanın Azərbaycana təcavüzünün gerçək mahiyyətini, erməni terrorizminin və vəhşiliyinin dəhşətli miqyasını bütün çılpaqlığı ilə üzə çıxarmışdır. Bu hadisə respublikamızın Qarabağ müharibəsində aldığı ən böyük zərbə, sonrakı məğlubiyyətimizi qismən labüd edən faciə olmuşdur. Həmin dövrdə mərkəzi hakimiyyətin antimilli xarakteri, respublikada xaos və anarxiyanın baş alıb getməsi, vəzifə kürsüsü uğrunda amansız mübarizə, ordudakı başıpozuqluq, cəbhə xəttində yaşanan faciələrə göstərilən laqeydlik təkcə Xocalı faciəsinin deyil, sonrakı müsibətlərimizin də əsas səbəblərindəndir. 1992-ci ilin mart-may aylarında Xocalı faciəsi ətrafında cərəyan edən siyasi oyunları xatırladıqda



Azərbaycan Milli Kitabxanası

ümumilikdə Qarabağ probleminin səhnəarxası gerçəklikləri barədə kifayət qədər aydın təsəvvür yaranır.

Tarixi faktlar göstərir ki, Xocalı şəhərinin ermənilər tərəfindən mühasirəsinə hələ 1991-ci ilin oktyabrında başlanmışdır. Xankəndi ilə Əsgəran arasında strateji yer olan Xocalının ələ keçirilməsi ermənilər üçün müstəsna məqsədlərdən olmuşdur. 1991-ci il oktyabrın 30-da Xocalı ilə quru əlaqəsi tamamilə kəsilmişdi və ara-sıra görünən vertolyotlar mühasirədə qalan 2500 nəfərlik Xocalını Azərbaycanla bağlayan yeganə nəqliyyat vasitəsi idi. 1992-ci il yanvarın 28-də Ağdam-Şuşa reysi ilə ucan mülki vertolyotun Xankəndidən atılan raketlə vurulmasından sonra Xocalı ilə hava əlaqəsinə də tamamilə son qoyuldu. 1992-ci il yanvarın 2-dən Xocalıya hətta elektrik enerjisi də verilmirdi. Şəhər büsbütün təcrid olunaraq taleyin ümidinə buraxılmışdı. Fevralın ikinci yarısından etibarən Xocalı dörd bir yandan erməni yaşayış məntəqələrindən intensiv artilleriya atəşinə məruz qalırdı. Şəhərin mühasirədən çıxarılması üçün kağız üzərində çeşidli planlar cızılsa da onların heç biri gerçəkləşdirilmirdi.

Həmin dövrdə hakimiyyətdə olan antimilli rejimin Qarabağı qorumaq bacarığına malik olmadığı qabarıq görünürdü. Üstəlik yeni silahlı qüvvələr siyasi intriqaların güdazına verilmişdi. 1992-ci il yanvarın sonu - fevralın birinci yarısında Kərkicahan, Quşçular, Malıbəyli və Qaradağlı kəndlərinin işğalına ölkə rəhbərliyinin göstərdiyi biganəlik Xocalıya münasibətdə də aşkar idi. Kritik





vəziyyətdə başını itirən hakimiyyət iflas həddində, müxalifətçilərsə hakimiyyət davasında idilər. Güc nazirliklərinin tez-tez dəyişdirilməsi hərbi uğursuzluqların əsas səbəblərindən birinə çevrilmişdi. Xocalının müdafiəsi üçün mərkəzi hakimiyyət səviyyəsində planlı tədbirlərin həyata keçirilməməsi son nəticədə ermənilərin 1992-ci il fevralın 25-dən 26-na keçən gecə amansız Xocalı qətliamına şərait yaratmış oldu.

Xocalıda baş verənlər soyqırımı aktı olsa da o zaman Azərbaycanda hakimiyyətdəkilərin məsuliyyətsizliyi və səhlənkarlığı üzündən erməni vandalizminin gerçək mahiyyəti barədə dünya ictimaiyyəti yetərincə məlumatlandırılmamışdı. Rəsmi təbliğat Xocalıda cəmi iki nəfərin öldüyünü iddia etməklə soyqırımı faktının miqyasını kiçiltmiş, milli maraqlara xəyanətkar mövqe tutulmuşdur. O zamankı ölkə rəhbərliyinin bu faciəyə olduqca laqeyd və qətiyyətsiz münasibəti nəticəsində ermənilərin işğalçılıq, etnik təmizləmə, terrorçuluq, habelə Xocalı soyqırımı kimi dəhşətli cinayət törətməsinə dünya ictimaiyyəti biganə yanaşmış, təcavüzkarın cilovlanması üçün beynəlxalq səviyyədə hansısa təsirli tədbirlər görülməmişdir.

BMT-yə yeni üzv qəbul olunmuş Azərbaycanın həmin dövrdə bu mötəbər təşkilatın prinsiplərinə əsaslanmaqla Xocalıda baş verən faciənin soyqırımı kimi tanınması istiqamətində zəruri tədbirlər həyata keçirməməsi də olduqca üzücü və təəssüfləndirici faktdır. Halbuki BMT Baş Məclisinin 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş "Genosid cinayətinin qarşısının alınması və



Azərbaycan Milli Kitabxanası

cəzalandırılması haqqında" Konvensiyanın 2-ci bəndində göstərilən şərtlər Xocalı faciəsinin məhz soyqırımı adlandırılmasına tamamilə imkan yaradırdı. Bu beynəlxalq sənəddə göstərilir ki, hər hansı milli, etnik, yaxud dini qrupun tam və ya qismən məhv edilməsilə törədilən bir sıra hərəkətlər genosid (soyqırımı) cinayətinin mahiyyətini təşkil edir. Bu hərəkətlər həmin qrupun üzvlərinin öldürülməsi, ağır bədən xəsarətinin, onların fiziki məhvinə səbəb olan həyat şəraitinin yaradılması, uşaqların zorla bir insan qrupundan alınıb başqalarına verilməsi törədilmiş cinayətin soyqırım kimi tövsif edilməsinə əsas verir. Bu hüquqi meyarlardan yanaşdıqda, ermənilərin Xocalıda törətdikləri dəhşətli cinayətlərin genosid olduğuna heç bir şübhə qalmır. Həmin gün mənfur erməni silahlı birləşmələri Xocalı əhalisini məhz millietnik, dini səbəblərlə son nəfərinədək qətlə yetirmək, məhv etmək məqsədini qarşıya qoymuşdular. Soyqırım hadisəsindən sonra cinayətin baş verdiyi yerdə olmuş fransız jumalisti Can Yunet demişdir ki: **"Mən müharibələr haqqında, alman faşistlərinin qəddarlığı haqqında çox eşitmişdim. Ancaq ermənilər 5-6 yaşlı uşaqları, mülki əhalini öldürməklə onları ötüb keçiblər".**

Ermənistanın müharibə zamanı beynəlxalq hüquq normalarına məhəl qoymaması ilə bağlı faktlar yalnız bununla bitmir. Beynəlxalq humanitar hüququn tələblərinə əsasən müharibə yalnız silahlı münaqişədə olan tərəflərin silahlı qüvvələri arasında aparılmalıdır. Mülki əhali döyüşlərdə iştirak etməməli və onlarla hörmətlə





davranılmalıdır. "Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair" IV Cenevrə Konvensiyasının 3-cü maddəsinə əsasən mülki əhalinin həyatına və təhlükəsizliyinə qəsd, o cümlədən onların hər cür öldürülməsi, şikəst edilməsi, qəddar davranılması, əzab və işgəncə verilməsi, insan ləyaqətinə qəsd, təhqir və alçaldıcı hərəkətlər qadağan edilir. Konvensiyanın 33-cü maddəsində isə qeyd olunur ki, heç bir mülki şəxs törətmədiyi hüquq pozuntusuna görə cəzalandırıla bilməz. Mülki əhaliyə qarşı kollektiv cəza tədbirlərinin görülməsi, mülki əhalini qorxuya salmaq, onlara qarşı terror hərəkətləri, bu insanların repressiyaya məruz qoyulması birmənalı qadağan edilir. Həmin Konvensiyanın 34-cü maddəsinə görə mülki əhalinin girov götürülməsi də qadağandır. Lakin təkcə Xocalıda 1000-dən artıq insanı girov götürən ermənilər bu prinsipə də aşkar sayğısızlıq nümayiş etdirmişdilər. Ermənistan silahlı qüvvələri bu hüquq normalarına məhəl qoymamış, Xocalıda dinc əhalinin məhvi üçün ən qəddar üsullara əl atmışlar.

1992-1993-cü ilin yarsına qədər hakimiyyətdə olmuş səriştəsiz və yarıtmaz qüvvələr bu və digər hüquq normalarına əsaslanmaqla Xocalı faciəsinin real mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması üçün heç bir iş görmədilər. Halbuki artıq Dağlıq Qarabağ münaqişəsi beynəlxalq ictimaiyyətin diqqət mərkəzinə gətirildiyi, beynəlxalq müstəvidə danışıqların başlandığı dövr idi. Ermənilər Azərbaycanın guya təcavüzkar olduğunu sübuta yetirmək üçün təbliğat maşınını tam gücü ilə işə salaraq "Sumqayıt olaylarını" dünyaya bəyan

Azərbaycan Milli Kitabxanası

etdilər. Biz isə yaşadığımız gerçək qətliamı dünyanın önünə çıxarmağa tələsmirdik. Hətta 1993-cü il fevralın 23-də imzalanmış "**Azərbaycana qarşı edilmiş vəhşiliklərin açıqlanması** haqqında" fərman da kağız üzərində qalmışdı.

Xocalı soyqırımının beynəlxalq müstəvidə tanıdılması və erməni faşizminin ifşası ilə bağlı ilk praktik təşəbbüs isə ulu öndərimiz Heydər Əliyevin xalqın təkidli tələbilə hakimiyyətə qayıdışından sonrakı mərhələyə təsadüf edir. Ümummilli liderimiz ilk gündən Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi soyqırım və terror siyasətinin mahiyyətini, habelə ərazilərimizin işğalından sonra Dağlıq Qarabağın terrorizm mənbəyinə çevrilməsi, orada narkotik maddələrin yetişdirilməsi, mədəni abidələrin məhv edilməsi faktlarının və digər faktların dünya ictimaiyyətinə çatdırılmasını xarici siyasətdə mühüm vəzifələrdən biri kimi müəyyənləşdirdi. Bu məqsədlə atılan mühüm addımlardan biri də erməni təcavüzü nəticəsində üzləşdiyimiz milli faciələrimizə siyasi hüquqi qiymətin verilməsi oldu.

Ulu öndərimizin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı Soyqırımı Günü haqqında" qərar qəbul etmişdir.

Ümummilli liderimiz hər zaman Xocalı faciəsinə xüsusi həssaslıqla yanaşmışdır. Ulu öndər Heydər Əliyev hər il faciənin ildönümündə keçirilən matəm tədbirlərində iştirak etmiş, Xocalı soyqırımını kədər hissi ilə xatırlamışdır. Xocalı faciəsinin Azərbaycan xalqının qan yaddaşı olduğunu dəfələrlə bəyan etmiş ulu öndərimiz hadisələrə beynəlxalq aləmdə





əsil siyasi qiymətin verilməsinin zəruriliyini vurğulamış, bu məsələnin dünya ictimaiyyətinə çatdırılması üçün xüsusi səy göstərmişdir. Faciəni xalqımızın böyük dərdi, kədəri, qəmi adlandırmış Heydər Əliyev eyni zamanda Azərbaycanımızın əsrlər boyu keçdiyi mübarizə, milli azadlıq yolunu şanlı, uğurlu yol kimi dəyərləndirmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 25 fevral 1997ci il tarixli Sərəncamı ilə hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilir. Azərbaycan Respublikası Milli Məclisinin 26 fevral 2002ci il tarixli qərarı ilə təsdiq edilmiş "Xocalı soyqırımının 10-cu ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı"nda isə bəyan edilir ki, Azərbaycan dövləti mövcud imkanların hamısından yararlanaraq, ərazi bütövlüyünün bərpasını təmin edəcək, Xocalı faciəsinin əsil beynəlxalq hüquqi siyasi qiymət almasına, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılmasına nail olacaqdır.

***Hümeyir ƏHMƏDOV,**
**Azərbaycan Beynəlxalq Universitetinin tədris işləri üzrə prorektoru, RF-nin Pedaqoji və Sosial Elmlər Akademiyasının müxbir üzvü***



Azərbaycan Milli Kitabxanası

**Aslan Xankişiyev**

ERMƏNİ QƏSBKARLIĞININ
QANLI FƏSADLARI

# XOCALI QƏTLİAMI

**Naşir: Rafiq Xan-Sayad oğlu**
**Texniki redaktor: Elvin Qulami**
**Kompüterdə yığdı: Səadət Abbasova**
**Şəkillər: «AzərTAC»-Vüqar Amrullayev**
**Dizayner: Ceyhun Əliyev**

---

**Yığılmağa verilib: 04.04.2009**
**Çapa imzalanıb: 22.04.2009**
**Ş.ç.v. 5,5, tiraj 500**
**«MBM» mətbəəsində çap olunub.**

Azərbaycan Milli Kitabxanası

Ar 2009/2235

829